EVDƏ QAL,
SAĞLAM QAL!

**İlham Əliyev: "Sovet döyüşçülərinin abidələrinə hücumlar nifrətə layiqdir"**



Bax 2

**Alman faşizmi üzərində tarixi Qələbədən 75 il ötür**




Bax 13





"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 079 (6044) **9 may** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycan qədər əbədi lider!

*Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin banisi, ümummillilider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümüdür*



**Bu uşaqlara yaşayış sahələri veriləcək**



Bax 13

**"İnanmırıq ki, Ermənistan hakimiyyətinin buna cəsarəti çatsın"**



Bax 13

**Bakı Metropoliteni bu gündən işə başlayır**



Bax 10

# İlham Əliyev: "Sovet döyüşçülərinin abidələrinə hücumlar nifrətə layiqdir"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə verib.*

AZƏRTAC müsahibəni təqdim edir.

X X X

**-Salam, İlham Heydər oğlu. Sizi salamlamağa şadam. Mən Sizinlə müxtəlif şəraitdə və müxtəlif yerlərdə söhbət etmək, Sizdən müsahibə götürmək şərəfinə nail olmuşam. Amma onlayn formatda söhbətimiz ilk dəfədir.**

-Bəli, siz haqlısınız. Bu format bir qədər qeyri-adidir, lakin artıq hamı ünsiyyətin bu formasına vərdiş edir. Ona görə düşünürəm ki, söhbətimizin məzmunu bu formatdan zərər çəkməyəcək. Hərçənd, əlbəttə, ən yaxın vaxtda sizi şəxsən görəcəyimə ümid edirəm.

**-Sağ olun, İlham Heydər oğlu. Çox vacib hesab etdiyim bir məsələdən başlamaq istəyirəm. Sizinlə böyük bayram - Qələbə Günü ərəfəsində görüşürük. Mən bilirəm ki, həmin gün Siz Moskvaya getməyə hazırlaşırdınız, çoxlu tədbirlər planlaşdırılırdı. Lakin pandemiya ilə bağlı sərt gerçəklik buna öz təsirini göstərdi. Bilirəm ki, Azərbaycanda bu böyük bayram həmişə çox təntənəli şəkildə qeyd edilirdi. Bu, təbii və ədalətlidir, çünki 600 mindən çox Azərbaycan vətəndaşı cəbhədə olub, onların yarısından çoxu döyüş meydanında həlak olub, müharibədən qayıtmayıb. 123 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Bu, bütün xalqın çox böyük igidliyidir. Eyni zamanda, arxa cəbhədə göstərilən qəhrəmanlıq, Azərbaycan neftçilərinin qəhrəmanlığı barədə danışmamaq olmaz. Döyüş maşınlarının, tankların, təyyarələrin, gəmilərin istifadə etdiyi bütün yanacağın 80 faizi Azərbaycan mədənlərində, Azərbaycan zavodlarında istehsal edilirdi. Bununla əlaqədar, əlbəttə, Sizdən soruşmaq istəyirəm, bütün bu vəziyyətə baxmayaraq, Azərbaycanda Qələbə Gününü necə qeyd etməyə hazırlaşırlar, bütün bu şəraitə baxmayaraq hansı tədbirlər keçiriləcək, ümumiyyətlə, bu gün Azərbaycanda bu bayramı necə qəbul edirlər?**

-Siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Biz fəxr edirik ki, respublikamız öz oğul və qızlarının həyatı bahasına, müəssisələrimizin gecə-gündüz işləməsi hesabına bu Qələbəyə mühüm töhfə verib. Bilirsiniz ki, Azərbaycanda sənaye həmişə yüksək səviyyədə inkişaf edib və bizim müəssisələrdə Qələbə üçün çox zəruri olan müxtəlif silah növləri fasiləsiz rejimdə istehsal edilirdi. Əlbəttə, siz düzgün



olaraq qeyd etdiyiniz kimi, Azərbaycan yanacağın ən mühüm təchizatçısı olub. O vaxt hələ Sibirdəki yataqlar kəşf edilməmişdi. Buna görə yanacaq-sürtkü materiallarının əsas bazası Azərbaycan idi. Bu da təsadüfi deyil ki, faşist Almaniyası məhz Bakını tutmaq niyyətində idi. Bu məşhur kadrlar dəfələrlə nümayiş etdirilib: Hitlerə təqdim edilən bayram tortunun üzərində "Xəzər dənizi" sözləri yazılmışdı. Hətta belə bir forma məxsusi olaraq Xəzər dənizinin sərhədlərini göstərirdi, Hitler də svastikanı həmin nöqtəyə qoymuşdu. Əgər bu niyyət baş tutsaydı, əlbəttə, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Əlbəttə, sizin düzgün olaraq qeyd etdiyiniz kimi, biz sovet dövləti tərəfindən layiqincə qiymətləndirilən qəhrəmanlarımızla fəxr edirik. 123 Sovet İttifaqı Qəhrəmanı bizim fəxr etdiyimiz insanlardır, indiki nəsil də, gələcək nəsillər də bu insanlarla fəxr etməlidirlər.

Tədbirlərə gəlincə, əlbəttə, koronavirus şəraitində bizdə kütləvi tədbirlər çoxdan ləğv edilib. Xüsusən ona görə ki, yaşı 65-dən çox olan insanların evdən çıxması məsləhət deyil. Biz öz veteranlarımızı qorumalıyıq. Təəssüf ki, onların sayı ilbəil azalır. Adətən mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Hər dəfə onlarla ünsiyyətdə olanda, sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da var. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi, əlbəttə, bizi heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik. Biz hər il veteranlar üçün mükafatlar ayırırıq. Bu il həmin mükafatın məbləği təxminən 900 dollar, manatla hesablasaq 1500 manat olacaq. İl ərzində də onların problemlərini həll edirik.

Deməliyəm ki, Azərbaycanda bizim ümumi qələbəmizə münasibət həmişə belə olmayıb. Təəssüf ki, müstəqilliyin ilk illərində, millətə zidd olan Xalq Cəbhəsi rejimi hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May Günü bayram təqvimindən silinmişdi. Müharibə veteranları mənəvi terrora məruz qalırdı, kütləvi informasiya vasitələrində onlara qarşı qəddar kampaniya aparılırdı. Yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra 9 May Günü bayram təqvimində bərpa olundu. O vaxtdan həmin gün dövlət bayramıdır. Bu qeyri-iş günüdür. Ədalət zəfər çaldı.

Siz düzgün olaraq qeyd etdiniz ki, mən həmin gün Moskvada olmağa hazırlaşırdım. Rusiya Federasiyasının Prezidentindən dəvət almışam, lakin koronavirusla əlaqədar bayram tədbirləri ləğv edilib. Ona görə bu il mən yenə həlak olanların xatirəsini yad edəcəyəm, lakin əlbəttə, tamam başqa formatda.

**-Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin deyib ki, müvafiq epidemioloji şərait imkan verəndə biz bu tarixi Rusiyada qeyd etməyi planlaşdırırıq, həmçinin təsdiq edilib ki, bütün dəvətnamələr qüvvədə qalır. Buna görə düşünürəm ki, bu məlum olanda və tarixlər təyin ediləndə, Siz Rusiya rəhbərliyi ilə, Müstəqil Dövlətlər Birliyi ölkələrindəki həmkarlarınızla birlikdə bu bayramı Moskvada qeyd etmək imkanına malik olacaqsınız.**

-Bəli, mən buna çox ümid edirəm.

**-İlham Heydər oğlu, Siz indicə tamamilə haqlı olaraq dediniz ki, Xalq Cəbhəsinin hakimiyyətdə olduğu Azərbaycan üçün kədərli günlərdə bu bayram, təəssüf ki, təqvimdən silinmişdi. Həqiqətən yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra ədalət zəfər çaldı və bu gün həmin bayramı bütün xalq qeyd edir. O da təəccüblüdür ki, bəzi ölkələrdə siyasətçilər tarixi yenidən yazmağa, onu saxtalaşdırmağa çalışırlar. Bəzi ölkələrdə şəhərləri xilas etmiş sovet hərbi sərkərdələrinə, sovet döyüşçülərinə ucaldılmış abidələri məhv edirlər, bəzi ölkələrdə isə hətta faşist kollaborasionistlərinə və ya faşist rejiminin adi xadimlərinə heykəllər qoyulur, xatirə lövhələri vurulur. Siz buna necə baxırsınız?**

-Biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək, faşizmi və faşist canilərini qəhrəmanlaşdırmaq cəhdlərini qətiyyətlə pisləyirik. Azərbaycan bir sıra forumlarda bu mövzuda açıq çıxış edib, o cümlədən mən dəfələrlə öz mövqeyimi bildirmişəm. Deməliyəm ki, Azərbaycan cəmiyyəti bu mövqeyə tam şərikdir. Əlbəttə, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması prosesi bizim üçün əslə qəbuledilməzdir. Bilirsiniz, bir müddət əvvəl belə qənaətdə idik ki, sübut edilməsinə ehtiyac olmayan həqiqətlər var, Böyük Vətən müharibəsinin tarixi də belə həqiqətlərdən biri idi. Lakin təəssüf ki, bəzən müəyyən dairələrin tarixi həqiqəti təhrif etmək, İkinci Dünya müharibəsində Qələbədə Sovet İttifaqının rolunu azaltmaq və faşizmi qəhrəmanlaşdırmaq üçün əlaqələndirilmiş səylərinin şahidi oluruq. Ona görə bu meylə son qoyulmalıdır, biz bunu yalnız birgə səylərimizlə edə bilərik. O cümlədən Böyük Vətən müharibəsi dövründə baş vermiş hadisələr haqqında həqiqəti gənc nəslə çatdırmaq yolu ilə. Ona görə ki, onlar həqiqəti bilməlidirlər, vətənpərvərlik, əcdadlarının qəhrəmanlığı ruhunda tərbiyə olunmalıdırlar. Əlbəttə, bəzi ölkələrdə baş verənlər, İkinci Dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktı, faşistlərə heykəllər qoyulması nifrət və ikrah hissi oyadır. Bunu keçmiş SSRİ məkanında, MDB məkanında görmək xüsusilə xoşagəlməzdir. Axı faşizm üzərində ümumi Qələbə naminə ən böyük qurban verən Sovet İttifaqı olub. Buna görə bu meyillər pislənməli, bu cəhdlərə son qoyulmalı və mənim fikrimcə, dünya liderləri bu barədə daha açıq danışmalıdırlar.

***Ardı Səh. 3***

# İlham Əliyev: “Sovet döyüşçülərinin abidələrinə hücumlar nifrətə layiqdir”

Əvvəli-Səh-2



Bizə gəldikdə isə, qeyd etdiyim kimi, mən bu məsələləri dəfələrlə qaldırmışam, o cümlədən MDB ölkələrinin sonuncu Zirvə görüşündə müzakirə mövzularından biri məhz bizim Böyük Qələbə bayramına, Qələbənin yubileyinə hazırlıq məsələsi idi. Mən təəssüflə qeyd etdim ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir. Konkret misallarla göstərdim ki, bir neçə il bundan əvvəl Ermənistanda faşist cəllad və cani, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adamın cinayətləri sübut olunub. Yeri gəlmişkən, Qələbənin 75 illiyi ərəfəsində həm Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlər də buna sübutdur. Bu adam müharibə dövründə deyirdi: “Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur”. Bu adamın təxribatçılıq fəaliyyəti çoxsaylı insanın ölümünə gətirib çıxarıb və təsadüfi deyil ki, müharibə qurtarandan sonra o, SMERŞ tərəfindən həbs edilib, 25 il azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb. Belə bir adama Ermənistanda 6 metr hündürlüyündə heykəl qoyulur. Heykəlin açılışında bu ölkənin keçmiş prezidenti iştirak edir. Mən bu məsələni qaldırmaqla MDB üzrə həmkarlarımın diqqətini ona cəlb etmək istəyirdim ki, biz, ilk növbədə, özümüzdə, öz təşkilatımızda hər şeyi öz adı ilə adlandırmalıyıq, burada siyasi korrektlik, selektivlik prinsipini və ya kiminsə xətrinə dəyməmək istəyini rəhbər tutmamalıyıq. Biz həqiqəti deməliyik, əks halda, bu təşkilat formatında diskussiyalar, səmimi desək, mənasını itirər. Buna görə bu məsələni qaldıranda ümid edirdim ki, Ermənistanın yeni, özünü demokratik kimi göstərməyə çalışan rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Lakin təəssüf ki, bunun əksini gördüm. Gördüm ki, Ermənistan nümayəndə heyətinin rəhbəri, baş nazir bu canini müdafiə etməyə başladı, dedi ki, nə olsun o, həbs düşərgələrində olub, Soljenitsın da həbs düşərgələrində olub. Bilirsiniz, bu yerdə protokol qaydalarını pozdum, yenidən çıxış üçün söz aldım və dedim ki, Soljenitsını faşistlərin əlaltısı ilə müqayisə etmək həyasızlığın yüksək dərəcəsidir. Ona görə bütün bunlar böyük təəccüb, heyrət doğurur və belə bir fikrə əsas verir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalır.

Yeri gəlmişkən deməliyəm ki, Rusiya Federasiyasının ərazisində, məsələn Armavir şəhərində də cinayətkar, faşistlərin əlaltısı Njdeyə xatirə lövhəsi vurulub. Yalnız mən bu məsələni dövlət başçılarının Zirvə görüşündə qaldırandan və bu məsələ kütləvi informasiya vasitələrində əksini tapandan sonra həmin lövhə götürülüb. Haqlı olaraq sual yaranır: Ermənistanda Böyük Vətən müharibəsi qəhrəmanları olmayıbmı? Bəs Armavirdə erməni kilsəsinin yaxınlığında nə üçün onlara yox, faşist caniyə xatirə lövhəsi vurulub? Bunu necə başa düşməli? Ona görə bu məsələlər geniş müzakirə edilməlidir. Yenə də hər bir ölkə bu məsələyə öz münasibətini selektivlik, siyasi korrektlik mülahizələrinə görə deyil, birbaşa və açıq şəkildə bildirməlidir. Ermənistanda bir tərəfdən deyirlər ki, onlar Qələbənin yubileyini bayram edəcəklər, amma digər tərəfdən faşistin abidəsi önünə gül qoyurlar. Bu, ən azı ziddiyyət, əslində isə riyakarlıq təzahürüdür.

**-Bu vəziyyəti belə qiymətləndirdiyinizə görə sağ olun, İlham Heydər oğlu. Mayın 4-də Sizin təşəbbüsünüzlə, - Azərbaycan hazırda Qoşulmama Hərəkatının sədrlik edir, - Qoşulmama Hərəkatının Zirvə görüşü keçirildi. Məsələn, mən həmin görüşü iştirakçıların tərkibinə, elə bu faktın özünə görə tarixi hadisə adlandıra bilərəm. Bu görüş koronavirusa qarşı mübarizə üzrə birgə qərarların, birgə ideyaların hazırlanmasına həsr edilmişdi. Zirvə görüşünə Siz sədrlik edirdiniz. Orada çoxsaylı ölkələrin, özü də Hindistan, Misir, İran və başqaları kimi aparıcı ölkələrin liderləri iştirak edirdilər. Bu görüş başa çatandan sonra Siz sədr kimi çəkici vuraraq Zirvə görüşünü yekunlaşdırdınız. İndi Zirvə görüşünü necə qiymətləndirirsiniz? Orada nə haqda razılığa gələ bildiniz? Bir daha təkrar edirəm, Zirvə görüşünün keçirilməsi özü tarixi faktdır, lakin praktiki baxımdan fikrinizi bilmək istərdim.**

-Siz tamamilə haqlısınız. Bu Zirvə görüşünü həqiqətən tarixi görüş adlandırmaq olar. Çünki əvvələn, o, yeni formatda, videokonfrans formatında keçirilirdi. İkincisi, Qoşulmama Hərəkatının Zirvə görüşləri bir qayda olaraq müəyyən dövriliklə keçirilir. Əgər bundan əvvəlki Zirvə görüşü keçən ilin oktyabrında Bakıda keçirilmişdisə, növbəti görüş 2022-ci ildə bizdən sonra sədrlik edəcək ölkədə keçirilməli idi. Buna görə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın bu təşəbbüsü təbii ki, vaxtında irəli sürülmüşdü. Onu da deməliyəm ki, keçən ilin oktyabr ayında biz Qoşulmama Hərəkatında sədrliyi öz üzərimizə götürdük. Qeyd etməliyəm ki, Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir, çünki bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında, yumşaq desək, gərgin münasibətlər var.

Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib. Bakı Zirvə görüşündə mən demişdim ki, biz öz sədrliyimizi heç də formal sədrlik hesab etmirik, biz səmərəli sədr olmaq istəyirik. Hərəkatın beynəlxalq arenada nüfuzunu və rolunu yüksəltmək, ölkələr arasında daha sıx birlik istəyirik, şərait yaratmaq istəyirik ki, bəzi ölkələr arasında mövcud fikir ayrılıqları, zəruri hallarda bizim də iştirakımızla nizamlansın. Mən, həmçinin dedim ki, Azərbaycan təkcə sədrlik dövründə deyil, bundan sonra da beynəlxalq arenada üzv ölkələrin mənafelərini müdafiə edəcək. Zirvə görüşünün baş tutması onu göstərir ki, əvvələn, biz öz sözümüzə sadiqik, ikincisi, bu Zirvə görüşünün keçirilməsinə böyük ehtiyac var idi. Buna görə də çıxış edənlərin əksəriyyəti Azərbaycanın bu təşəbbüsünün vaxtında irəli sürüldüyünü və vacibliyini qeyd etdilər. Həmçinin deməliyəm ki, aparıcı beynəlxalq təşkilatların rəhbərləri - Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru və Avropa Komissiyasının vitse-prezidenti Zirvə görüşünün iştirakçılarını salamladılar. Bu məqamı xüsusi vurğulamalıyam. Mən Avropa Komissiyasının və Qoşulmama Hərəkatının hansısa vahid formatda iştirak etdiyi ikinci belə hadisəni xatırlamıram. İndiki halda bu cür birgə tədbir ona görə mümkün oldu ki, Azərbaycan Avropa İttifaqı ilə çox fəal əlaqə saxlayır, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazanıb. Əlbəttə, bir məsələ də var ki, bizi ümumi bəla birləşdirir. Buna görə Zirvə görüşünün keçirilməsinin əsas məqsədi təşkilatın daxilində həmrəylik göstərmək, habelə aparıcı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq idi.

Mənim təşəbbüsümlə biz dövlət və hökumət başçıları səviyyəsində BMT-nin koronavirusa həsr edilmiş xüsusi Baş Assambleyasının keçirilməsini təklif etdik. Hərəkatın üzvü olan ən həssas ölkələrə təxirəsalınmaz kömək göstərilməsi üçün biz Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. Bu, bizim ikinci donor ianəmizdir. Bundan əvvəl mart ayında da qlobal pandemiyaya qarşı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırmışdıq. Qoşulmama Hərəkatında yaradılmış Təmas Qrupu formatı üzv ölkələr tərəfindən böyük dəstək alıb. Biz istiqamətlər üzrə yarımqruplar və COVID-19-a qarşı mübarizə üzrə vahid məlumat bazası yaradılmasını təklif etdik ki, həm Hərəkatın belə niyyəti olan üzvləri, həm beynəlxalq təşkilatlar, həm də donor təşkilatlar vaxtında yardım göstərmək üçün informasiya bazasına malik olsunlar. Mən deyərdim ki, Zirvə görüşünün keçirilməsinin əsas məqsədləri də, nəticələri də budur. Bir daha deməliyəm ki, bütün iştirakçılar bu görüşün vacibliyini, zəruriliyini qeyd etdilər, bu təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildirdilər.

Deməliyəm ki, bu, bizim keçirdiyimiz ilk Zirvə görüşü deyil. Hazırda Azərbaycan həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədridir və aprelin 10-da bu təşkilatın Azərbaycanın təşəbbüsü ilə keçirilmiş Zirvə görüşü faktiki olaraq dünyada videokonfrans formatında ilk Zirvə görüşü oldu. Biz iki ay ərzində çox mühüm iki beynəlxalq tədbir keçirdik, əminəm ki, onlar həmrəyliyi və əməkdaşlığı möhkəmlədəcək. Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı bir məqam da ondan ibarətdir ki, dediyim kimi, Qoşulmama Hərəkatında 120 ölkə, sədri məktubla müraciət etmiş Afrika İttifaqında 55 ölkə, ali nümayəndəsi bu tədbirdə iştirak edən Avropa İttifaqında 27 ölkə var. Buna görə təvazökarlıqdan kənar olsa da deməliyəm ki, Azərbaycan və Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi.

Ardı Səh. 4

# İlham Əliyev: "Sovet döyüşçülərinin abidələrinə hücumlar nifrətə layiqdir"

Əvvəli-Səh-3

**İlham Heydər oğlu, bu, həqiqətən belədir. Bir fikir də söyləmək istəyirəm ki, əlbəttə, Azərbaycanın sədrlik etməsi, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına müəyyən ianə verməsi faktları mühüm amildir. Lakin mənə belə gəlir ki, Azərbaycanın bu Zirvə görüşünü çağırmağa mənəvi haqqı daha bir səbəblə bağlıdır, obyektiv rəqəmlər göstərir və Ümumdünya Səhiyyə Təşkilatı da bunu sadəcə təsdiqləyir ki, bu dəhşətli pandemiya Azərbaycandan yan keçmədiyinə baxmayaraq, - hər halda, mən rəqəmlərə baxmışam, - ölkədə bu mübarizədə müəyyən uğurlar qazanılıb. Mənə belə gəlir ki, vəziyyəti yavaşıtmaq, müəyyən məqamda isə döndərmək mümkün olub. Hər halda rəqəmlər bunu deyir, ÜST də bunu təsdiq edir. Buna nəyin sayəsində nail olunub? Hansı səylər göstərilib? Çünki bu ümumi bəlanın öhdəsindən daha böyük dərəcədə gələn istənilən ölkənin təcrübəsi bu gün çox vacibdir**.

-Siz tamamilə haqlısınız. Son nəticələr barədə danışmaq hələ tezdir, lakin aralıq nəticələr göstərir ki, biz doğru yoldayıq. Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz bu işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanlanmış məktubunda Azərbaycan rəhbərliyinin gördüyü tədbirlər yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə, yəni bu bəlaya qarşı mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

Konkret tədbirlərə gəldikdə isə deməliyəm ki, biz lap əvvəldən Nazirlər Kabineti yanında Operativ Qərargah yaratdıq. Onun çox geniş səlahiyyətləri var və hər gün, hər saat mühüm təşkilati məsələlərlə məşğul olur. Mənim fikrimcə, bütün ölkələrin əsas vəzifəsi bu xəstəliyin inkişafını, onun geniş yayılmasını yavaşıtmaq idi. Bir sıra başqa ölkələr kimi, Azərbaycana da bu virus kənardan gətirilib. Buna görə qonşularla müvafiq məsləhətləşmələrdən sonra sərhədlərin bağlanması birinci mühüm addım oldu. Lakin sonra gördük ki, daxildə yoluxma prosesi gedir. Odur ki, mərhələli şəkildə məhdudlaşdırıcı tədbirlər tətbiq edildi. Biz həmin tədbirləri şəraitə uyğun olaraq tətbiq etdik və hadisələrin arxasınca getməyə yox, onları qabaqlamağa çalışdıq, əks halda, uğur qazana bilməzdik.

Biz dövlət xəstəxanalarının işini operativ surətdə tamamilə yeni formatda təşkil etdik. Bu gün 20-dən çox dövlət xəstəxanası koronaviruslu xəstələrin müalicəsi üçün təqdim edilib. O cümlədən, 575 çarpayılıq yeni ən müasir xəstəxana bütünlüklə koronaviruslu xəstələrə təqdim edilib. Biz operativ surətdə əlavə laboratoriyalar aldıq. Hazırda 23 bu cür laboratoriyamız var, lazım gəlsə yenə alacağıq. Milyon nəfərə düşən testlərin sayına görə Azərbaycan lider ölkələr sırasındadır. Biz 160 mindən çox test keçirmişik. Əlbəttə, bu, xəstəliyin yayılma ocaqlarının, o cümlədən regional baxımdan aşkar olunmasına kömək edir. Mayın 4-dən, bundan əvvəl isə aprelin 27-dən karantin rejimi müəyyən qədər yumşaldılmağa başlanıb. Bu, onunla bağlı idi ki, son 3 həftədə pozitiv dinamika müşahidə edirik, yəni sağalanların sayı yoluxanların sayından çoxdur. Biz həm də həkimlərimizə, tibb işçilərinə çox qayğı ilə yanaşırıq. Koronaviruslu xəstələrə xidmət edənlər üçün onların aylıq maaşından 3, 4, 5 dəfə yüksək xüsusi maaş əlavələri tətbiq edilib. Ona görə də bu məhdudlaşdırma tədbirlərinin, o cümlədən müalicə prosesinin düzgün təşkilinə yönəlmiş tədbirlər kompleksi sayəsində biz hələlik bu vəziyyətdən minimum itkilərlə çıxa bilirik.

Bizim tədbirlərə ictimai dəstəyin yüksək səviyyəsini də qeyd etmək istərdim. Mən hər gün yüzlərlə, bəzən minlərlə təşəkkür məktubu alıram. Bu məktublarda bütün kateqoriyalardan olan vətəndaşlar, balaca uşaqlardan başlamış uzunömürlülərə qədər təşəkkürlərini bildirirlər ki, biz hələlik bu vəziyyətdən şərəflə çıxırıq. Lakin biz onu da demişik ki, karantin rejiminin yumşaldılması tədbirlərinin vəziyyəti kəskin pisləşdirdiyini görsək, bu rejimi yenidən sərtləşdirməli olacağıq. Mən Azərbaycan xalqına müraciətlərimdə dəfələrlə demişəm ki, biz həmrəylik göstərdik, birlik göstərdik, indi biz həm də məsuliyyət və intizam göstərməliyik. Fikrimcə, bu iki istiqamət ayrıca müzakirə tələb edir, lakin düşünürəm ki, bütövlükdə vəziyyət hələlik nəzarət altındadır.

Onu da deməliyəm ki, biz pandemiyadan əziyyət çəkənlərə təqribən 2 milyard dollarlıq sosial-iqtisadi yardım paketi ayırmışıq. Bu paket, ilk növbədə, pandemiyadan əziyyət çəkən sahələrdə çalışan 700 minə yaxın insanı və mikrosahibkarları əhatə edir. Dövlət iki ay ərzində onların əməkhaqqının xeyli hissəsini ödəyəcək, çünki onlar praktiki olaraq işləmirlər. Bunlar 600 min aztəminatlı ailə və işsiz, hətta qeyri-formal sektorda məşğul olanlar, yəni əmək müqaviləsi olmayanlardır. Onlara 2 ay ərzində müəyyən məbləğ ödənilir ki, hətta əmək müqaviləsi olmayanlar da əməkhaqqı alsınlar. İndi bu adamlar qazancdan məhrum olublar.

Biz ünvanlı sosial yardım alan ailələrin sayını artıraraq 80 minə çatdırmışıq, belə ailələrin hər biri orta hesabla 222 manat, yəni 130 dollar alır. Bundan əlavə, əməkhaqqı minimal səviyyədə, yəni 250 manat və ya təxminən 150 dollar səviyyəsində olmaqla, 90 min ödənişli ictimai iş yeri və 12 min özünüməşğulluq yeri yaradılır. Bu yerlər dövlət tərəfindən maliyyə və texniki kömək nəzərə alınmaqla cari ildə fəaliyyətə başlayacaq. Bu, həmin paketin yalnız bir hissəsidir. Vergi güzəştləri, vergi tətilləri də var. Yəni biz bu məsələyə çox geniş yanaşmışıq və ilk növbədə, insanları, onların sağlamlığını, həyatını qorumağa və ikinci növbədə iqtisadiyyatın inkişafını təmin etməyə çalışırıq.

**-İlham Heydər oğlu, bütün bunlar barədə danışarkən Sizin üçün əlbəttə, sirr deyil ki, indi ekspertlər, analitiklər, siyasətçilər tez-tez belə fikirlər səsləndirirlər: Allah qoysa, gec-tez pandemiya başa çatacaq. Lakin hələlik bütün proses yüksələn xətt üzrə gedir. Buna baxmayaraq, hamı deyir ki, dünya başqa cür olacaq. O, dəyişəcək, sosial baxımdan, iqtisadi baxımdan, müəyyən mənada mədəni baxımdan dəyişəcək. Azərbaycan son illərdə çoxsaylı iri tədbirlər - idman, mədəniyyət, siyasət, iqtisadiyyatla bağlı tədbirlər, müxtəlif forumlar keçirib. Bundan əvvəl dediklərinizin hamısı inkaredilməz faktlara, dəqiq rəqəmlərə əsaslanırdı. İndi mənim sualım fərziyyələr sahəsinə daha çox aiddir. Siz postpandemiya dövrünü necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq. İndi xüsusilə gənclər bu cür suallar verirlər. Çünki onlar çoxsaylı psixoloji çətinliklərlə üzləşir, yaşlılar üçün isə bu, həm də fiziki xarakterli çoxsaylı risklər deməkdir. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz?**

-Bilirsiniz, bir sıra siyasi və ictimai xadimlər, həmçinin geniş beynəlxalq ictimaiyyət qeyd edir ki, dünya başqalaşacaq və artıq başqalaşıb. Biz də yeni iş formatına, yeni həyat formatına, özünütəcrid rejiminə tədricən alışırıq. Əlbəttə, əslində bu, xüsusən sərt karantin şəraitində insanların çoxunun həyat tərzinə də, onların psixoloji vəziyyətinə də ciddi təsir göstərir. Biz yaxşı başa düşürük ki, həftələrlə evdə oturmaq, evdən çıxmamaq fəal həyat tərzinə, fəal işləməyə adət etmiş insanlar üçün çox ciddi sınaqdır. Bəli, mən qeyd etdim ki, işini itirənlər üçün vəsait ödəyirik. Axı onlar üçün motivasiya təkcə əməkhaqqı deyildi. İnsanlar əslində, sevimli işindən məhrum olublar və əlbəttə ki, bu da onların psixoloji vəziyyətinə ciddi təsir göstərə bilər. Buna görə dünyanın gələcəkdə necə olacağını güman etmək çətindir.

Beynəlxalq tədbirlər keçirilməsinə gəldikdə, mənim dediyim iki Zirvə görüşü göstərdi ki, biz bu formatda da işləyə bilərik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Əgər biz Zirvə görüşünü adi rejimdə keçirsəydik, bu, əlbəttə, 2 gün, bəlkə də 3 gün davam edərdi, çoxsaylı ikitərəfli görüşlər, çoxlu mədəni tədbirlər olardı. Amma, məsələn, mayın 4-də Zirvə görüşü fasiləsiz olaraq altı saat yarım davam etdi. Sədr kimi mənim həmin görüşü tərk etmək imkanım yox idi. Əlbəttə, bu formatda yaşamağa öyrəşmək lazımdır.

Beynəlxalq forumlara gəldikdə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan, ilk növbədə, humanitar əməkdaşlıq üçün artıq mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və formalaşmasında şəxsən siz, Mixail Solomonoviç, çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış bir sıra başqa tədbirlər də sual doğurur - biz onları necə keçirəcəyik? Beynəlxalq forumları, diskussiyaları videokonfrans rejimində keçirməyə imkan olacaqmı - bütün bunlar gələcəyin məsələləridir. Lakin bir şey aşkardır ki, koronavirus üzərində qələbədən sonra sırf işçi baxımdan, psixoloji baxımdan bu vəziyyətdən çıxmaq üçün hələ uzun müddət lazım gələcək. Bunun nə qədər davam edəcəyini demək çox çətindir. Lakin mənim fikrimcə, əsas məqam, o cümlədən beynəlxalq siyasət məsələlərində əməkdaşlığın müsbət təcrübəsini qoruyub saxlamaqdır ki, bu müvəqqəti ayrılıq ölkələri bir-birindən ayırmasın. Biz dialoqu davam etdirək, videokonfrans formatında işləyək. Yeri gəlmişkən, mən həmkarlarımla videokonfrans formatında bir neçə görüş keçirmişəm. Əlbəttə, forma fərqli olacaq, lakin əsas məsələ müsbət məzmunu saxlamaq və pandemiya nəticəsində gördüyümüz müsbət məqamların sayını artırmaqdır. Ola bilsin, bunlar hələ ilk təzahürlərdir, lakin həmrəylik, hətta münasibətləri gərgin olan ölkələr arasında da əməkdaşlıq elementləri görünür.

**-İlham Heydər oğlu, Siz dediniz ki, bütün bu çətinliklərə baxmayaraq, əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək zəruridir. Məhz bu baxımdan mən istərdim ki, Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətləriniz məsələsinə toxunaq, Sizin aranızda kifayət qədər sıx şəxsi yoldaşlıq münasibətləri, necə deyərlər, "personal chemistry" yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Putin Azərbaycanda olub. Bu şəraitdə Sizə elə gəlmirmi ki, Sizin fikrinizin davamı kimi məhz yeni şəraitdə yeni həllər və əməkdaşlığın yeni formatını tapmaq üçün bu əlaqələri daha da intensivləşdirmək lazımdır?**

-Bəli, siz tamamilə haqlısınız, biz bu məsələ üzərində işləyirik, hətta pandemiya şəraitində də fasiləsiz nəqliyyat daşımaları həyata keçirilir. Biz tranzit-logistika sahəsində işləri intensivləşdirmək barədə razılığa gəlmişik. Ölkələr arasında, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinə gəldikdə isə əlbəttə, pandemiya mənfi təsirini göstərir. Lakin əminəm ki, biz müsbət əməkdaşlığı qoruyub saxlayacaq və genişləndirəcəyik.

Siz qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Sonuncu görüşümüz keçən ilin axırında Peterburqda olub, bundan əvvəl Soçidə. Mən "Valday" Diskussiya Klubuna dəvət edilmişdim. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı əlaqələrimizin inkişafına çox müsbət təkan verir və tabeliyimizdə olanlara verdiyimiz göstərişlər, təlimatlar həyata keçirilir.

Qarşılıqlı siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Əlbəttə, pandemiya olmasaydı, biz əmtəə dövriyyəsini daha da artırardıq. Lakin əminəm ki, iqtisadi əlaqələrimiz lazımi səviyyədə olacaq. Bizim nəqliyyat-logistika sahəsində də böyük planlarımız var. Bu gün bizim fəal istifadə etdiyimiz Şimal-Cənub dəhlizi ilə yanaşı, Rusiyanın Şimal-Qərb nəqliyyat dəhlizinə qoşulması da bizi sevindirir. Rusiyalı yükgöndərənlər Azərbaycandan Avropa istiqamətinə gedən bu marşrutdan istifadə edirlər. Elektroenergetika sahəsində elektrik enerjisi mübadiləsi, habelə çoxtərəfli əməkdaşlıq baxımından böyük potensial var. Biz yüksəkvoltlu elektrikötürmə xətləri ilə bağlıyıq.

Neft-qaz sahəsində də vəziyyət yaxşıdır. Bəlkə də çoxları bilmir, lakin Xəzər dənizinin Rusiya sektorunda Rusiya şirkətləri tərəfindən hasil edilən neftin bir hissəsi Azərbaycanın nəqliyyat infrastrukturu vasitəsilə nəql edilir. Yəni, burada əməkdaşlıq yüksələn xətt üzrə davam edir.

Əlbəttə, Rusiya Prezidenti ilə birlikdə humanitar sahədə həmişə həyata keçirdiyimiz əməkdaşlığı da hökmən qeyd etmək lazımdır. Düşünürəm ki, bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Rusiyada da bunu çox yüksək qiymətləndirirlər ki, Azərbaycanda tədrisin rus dilində olduğu 330-dan çox məktəb var. Rusiyanın aparıcı ali məktəblərinin filialları, yetərincə zəngin mədəni proqram və əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulmuş "Azərbaycan" pavilyonunun təntənəli açılışı da dostluq münasibətlərinin rəmzidir.

Əlbəttə, biz təəssüflənirik ki, pandemiya turizm sektoruna çox güclü zərbə vurub. Ona görə ki, keçən il bir milyona yaxın rusiyalı Azərbaycana səfər edib. Biz bu il də rusiyalı turistlərin sayının artacağına ümid edirdik. Lakin hər şeyin qaydaya düşəcəyi və insanların yenidən bir-birini ziyarət etməyə başlayacağı vaxtı gözləyək. Siz tamamilə haqlısınız, biz vaxtı itirməməliyik, bu il görüləsi işlər hələ çoxdur. Biz daim əlaqə saxlayırıq və yaxın dostlar, tərəfdaşlar kimi işləyirik.

# İlham Əliyev: “Sovet döyüşçülərinin abidələrinə hücumlar nifrətə layiqdir”

Əvvəli-Səh-4

**-İlham Heydər oğlu, bilirsiniz, pandemiyadan sonrakı dövrdən söhbət düşəndə enerji sahəsi ayrıca mövzudur. Əlbəttə, indi xəbərlərin bütün gündəliyi pandemiya ilə bağlıdır. Lakin hələ yaxın vaxtlarda neftin qiymətləri mövzusu da buraya əlavə olunurdu. Dünya təlatümdə idi, hamı hansısa detektiv kimi neftin qiymətinin az qala mənfiyə keçməsini izləyirdi. Bütün insanlar neft sahəsində mütəxəssislərə çevrilmişdi. Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər, Siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır. Bununla əlaqədar mən neftin qiymətlərini qabaqcadan söyləməyə hazır deyiləm, amma asılılıqdan yaxa qurtarmaq baxımından Siz iqtisadiyyatın hansı sahələrinə bel bağlayırsınız, postneft dövründə Azərbaycanı necə təsəvvür edirsiniz?**

-Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Onu demək kifayətdir ki, bu ilin birinci rübündə qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalının həcmi 23 faiz artıb. Bu, mütləq rekord göstəricidir. Mənim fikrimcə, pandemiya şəraitində bu rəqəm, əlbəttə, bizim apardığımız işə hörmət doğurur. Buna görə qeyri-neft sektoruna oriyentasiya bizim əsas prioritetimiz olub və yenə belədir. Dəfələrlə dediyim kimi, biz neft sektorunu yaddan çıxarmalıyıq. Deməli olar ki, bu gün neftin bu qiymətləri ilə postneft dövrü, əslində, başlanıb. Buna görə Azərbaycan iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsi onun aşkarlığı olacaq. Bu istiqamətdə - iqtisadiyyatın kölgədən çıxarılması üçün çox iş görülür. Təəssüf ki, bu problem bizim üçün hələ də aktualdır. Burada qeyri-formal məşğulluqdan başlamış vergi ödəməkdən yayınmağa qədər bütün məsələlər bir-biri ilə sıx bağlıdır. Bizim gördüyümüz tədbirlər öz nəticələrini verir. Həm keçən il, həm də bu il biz büdcəni, əsasən, iqtisadiyyatın kölgədən çıxarılması hesabına artırırıq. Yəni, bu, əsas hərəkətverici amil olacaq.

İqtisadiyyatın sahələrinə gəldikdə, əlbəttə, mən, ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim, orada çox böyük potensial var və bu sahəyə çox böyük investisiyalar yatırılıb. Artım da kifayət qədər ciddidir. Nəqliyyat-logistika sahəsi. Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Ölkəmiz Şərq-Qərb nəqliyyat dəhlizində fəal iştirak edir. Bu, “Bir kəmər, bir yol” təşəbbüsü, Şimal-Cənub dəhlizi, həmçinin artıq qeyd etdiyim Şimal-Qərb dəhlizi layihəsidir. Odur ki, nəqliyyat-logistika infrastrukturunun yaradılması başa çatdırılıb və bu gün biz daşımaları artırmaq, Azərbaycanın tranzit imkanlarını genişləndirmək üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.

Biz turizmə böyük diqqət yetirirdik və yenə belədir. Bu sektor çox perspektivli idi. Son 4 ildə turistlərin sayı hər il 10 faizdən 24 faizə qədər artıb. Müasir turizm infrastrukturu yaradılıb. Lakin əlbəttə, pandemiya bu sektora çox güclü zərbə oldu. İndi biz daxili turizmin stimullaşdırılması barədə düşünürük. Xüsusən ona görə ki, Azərbaycanın milyonlarla vətəndaşı il ərzində, o cümlədən istirahət üçün ölkədən kənara gedir. Onlar sərhədlərin bağlanmasını nəzərə alaraq yəqin ki, bu il yayda daxili turizmə istiqamətlənəcəklər.

Əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sektorunu da qeyd etməliyəm. Burada da yaxşı təməl yaradılıb. Üç süni peyki olan Azərbaycan artıq kosmik klubun üzvüdür. İKT sektoru çox fəal inkişaf edir və bu sahədə çox ciddi artım var. Ona görə düşünürəm ki, bu istiqamətlər bundan sonra da mühüm rol oynayacaq. Əlbəttə, iqtisadiyyatın qlobal məsələlərinə bir daha qayıdaraq deməliyəm ki, bu, həm yerli, həm də əcnəbi investorlar üçün biznes mühitinin yaxşılaşması və kiçik sahibkarlığa dəstək deməkdir. Biz hazırda bu istiqamətdə böyük addımlar atırıq. Bu, həm məşğulluğu, həm də iqtisadiyyatın şaxələndirilməsini təmin edəcək. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən bilirik ki, orada ümumi daxili məhsulun yarıdan çoxu kiçik və orta biznes hesabına formalaşır. Biz də buna çalışmalıyıq.

**-İlham Heydər oğlu, bilirsiniz ki, hazırda müzakirə edilən və pandemiya ilə bağlı daha bir məsələ beynəlxalq təşkilatların effektivliyi məsələsidir. Siz Qoşulmama Hərəkatının pandemiyaya həsr edilmiş tarixi Zirvə görüşünün uğurla keçməsindən danışdınız. Lakin indi bəzi siyasətçilər Birləşmiş Millətlər Təşkilatının ünvanına çoxlu tənqidi sözlər söyləyirlər. BMT-nin təsisatı olan Ümumdünya Səhiyyə Təşkilatı ciddi tənqidə məruz qalıb. Azərbaycan əksər beynəlxalq təşkilatların inamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi, ATƏT və digər təşkilatlar sistemində fəal işləyir. Sizin fikrinizcə, əvvələn, beynəlxalq təşkilatların ünvanına bu tənqid nə dərəcədə ədalətlidir, beynəlxalq təşkilatlar bu ümumi bəlaya nə dərəcədə hazır oldular, digər tərəfdən, Siz necə hesab edirsiniz, onların hazır olmaları üçün beynəlxalq təşkilatlarda islahatlar, qarşılıqlı fəaliyyətin hansısa yeni variantları tələb olunurmu? Axı, həmişə nəyisə gözləmək lazım gəlir.**

-Bilirsiniz, mənim fikrimcə, bu istiqamətdə əsas amil ayrı-ayrı ölkələrin iradəsidir. Ona görə ki, beynəlxalq təşkilatlar ölkələrdən ibarətdir və ölkələr bu təşkilatlara nümayəndələrini göndərirlər, ölkələr öz mənafelərini bu beynəlxalq təşkilatlar çərçivəsində müdafiə edirlər. Beynəlxalq təşkilatlara rəhbərlik edən insanlar beynəlxalq məmurlardır. Əlbəttə, onlar kiminsə xoşuna gələcək, kiminsə xoşuna gəlməyəcək məsul qərarlar qəbul etməli olanda üzləşdikləri çətinlikləri anlamaq lazımdır. Buna görə onların diplomatiya məharəti də çox cəhətdən bu və ya digər beynəlxalq təşkilatın nüfuzunu müəyyən edir.

Azərbaycana gəldikdə, bizim üzv olduğumuz bütün təşkilatlarda məhz ona görə iştirak edirik ki, bu təşkilatı gücləndirək, çünki biz onun üzvüyük, həmçinin bu təşkilatda fəaliyyətimiz çərçivəsində öz milli maraqlarımızı maksimum təmin edək. Lakin biz, ilk növbədə, üzv ölkələrin daha böyük etimadını qazanmağa çalışırıq və həyata keçirdiyimiz təşəbbüslər buna istiqamətlənib. Məsələn, Qoşulmama Hərəkatının üzvləri olan ölkələrə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə yardımı göstərmək təşəbbüsü konkret nümunədir.

Təəssüf ki, beynəlxalq təşkilatlarda sözçülük çox geniş yayılıb, özü də ilbəil bir məruzədən digərinə köçürülən və arxasında heç bir əməli iş dayanmayan şablon sözlər. Həm də, əlbəttə, istənilən beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan və hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə burada bütün ölkələrin maraqlarının nəzərə alınması da vacibdir ki, böyük maliyyə, siyasi və digər resursları olmayan ölkələr özlərini aldadılmış, ikinci dərəcəli üzvlər kimi hiss etməsinlər. Buna görə hesab edirəm ki, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörmət mühüm prioritetlərdən biridir. Əlbəttə, bütün dünyanı, yaxud Qoşulmama Hərəkatı kimi 120 ölkəni birləşdirən qlobal beynəlxalq təşkilatlar çərçivəsində buna nail olmaq daha yığcam təşkilatlarla müqayisədə çətindir. Lakin hesab edirəm ki, bu, siyasətçilər üçün əsas ruhlandırıcı amil olmalıdır.

Bir də, əlbəttə, beynəlxalq təşkilatın nüfuzu çox cəhətdən onun qəbul etdiyi qərarların yerinə yetirilməsindən asılıdır. Deməliyəm ki, burada da islahatlar üçün yer çoxdur. Hətta BMT Təhlükəsizlik Şurasının neçə illər bundan əvvəl qəbul etdiyi qətnamələr yerinə yetirilmir və Azərbaycan bunu öz timsalında yaşayır. Otuz ilə yaxındır ki, erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmir və təcavüzkara qarşı, bu qətnamələri pozana qarşı heç bir sanksiya tətbiq edilməyib. Buna görə hökmən cəza mexanizmi olmalıdır. Əgər beynəlxalq təşkilat icrası zəruri olan qərar qəbul edirsə, bu qərar yerinə yetirilməlidir. Qərarı pozan üzv barəsində isə bir neçə mərhələdən ibarət prosedur olmalıdır, lakin bu prosedur yoxdur. Mənim fikrimcə, beynəlxalq təşkilatlara münasibətdə müəyyən ümidsizlik doğuran əsas amillər bunlardır. Sizə səmimi deməliyəm, bəzən beynəlxalq hüquqa zidd olan hərəkətlər müşahidə edirik, bu isə əlbəttə, beynəlxalq təşkilatların nüfuzunu artırmır və ümumiyyətlə müasir dünya nizamını şübhə altına alır. Ona görə ki, beynəlxalq hüquq hər kəs üçün prioritet olmalıdır və ölkələr onların potensialından, imkanlarından asılı olmayaraq beynəlxalq hüquqa hörmət etməyə borcludurlar. Amma biz bəzən beynəlxalq hüququn kobudcasına, nümayişkaranə şəkildə pozulduğunu görəndə sual yaranır: bəs biz nə üçün ona riayət etməliyik? Əgər başqaları onu pozmağı özlərinə rəva görə bilirsə, biz nə üçün poza bilmərik? Mən demirəm ki, biz bu yolla gedirik. Xeyr. Azərbaycan həmişə qanunun aliliyini və beynəlxalq hüququn aliliyini əsas götürür. Lakin haqlı olaraq, bu cür suallar yaranır və əlbəttə, onlara birgə cavablar axtarmaq lazımdır.

**-İlham Heydər oğlu, Sizdən praktiki məsləhət istəyirəm. Bilirsiniz, dövlət başçısı kimi sanki mürəkkəb şəraitə düşmüsünüz. Siz, bir tərəfdən, karantinə riayət etməlisiniz və bilirəm ki, bir vətəndaş kimi adi təhlükəsizlik mülahizələrinə əsasən buna riayət edirsiniz. Amma digər tərəfdən televizora baxanda görürük ki, Sizin dövləti fəaliyyətinizin intensivliyi əsla azalmır. Siz bunları əlaqələndirməyə necə nail olursunuz? Digər tərəfdən Siz həmişə fiziki formanızı saxlamağa böyük diqqət yetirirsiniz və yəqin ki, bunu tez-tez edirsiniz. Öz həmvətənlərinizə, bizim televiziya tamaşaçılarına məsləhət verin: karantin şəraitində belə fiziki formanı necə saxlayırsınız?**

-Fiziki formanı ev şəraitində də saxlamaq olar. Bu gün bu, artıq heç kəs üçün sirr deyil. İdman zalına getmədən evdə idmanla fəal məşğul olmağın mümkünlüyünü göstərən informasiya resursları çoxdur. Mən ilk gənclik illərimdən bəri idmanla məşğulam və əlbəttə, bütün qaydalara riayət edirəm. Hesab edirəm ki, idmanla məşğul olmaq hər kəsdən ötrü həm sağlamlıq, həm özünəinam, həm də iş qabiliyyəti üçün mühüm amillərdən biridir. Mən gənclərə və orta yaşlı insanlara müraciətlə dəfələrlə demişəm, idmanla məşğul olun. Bəzən bunu çox təkrar edirəm, lakin insanların buna əməl etmələri üçün təkrarlamaq lazımdır. Yadımdadır, biz xəstəxanaların tikintisini genişləndirməyə başlayanda mən dəfələrlə təkrar edirdim ki, hər kəs tibbi müayinədən keçməlidir. Biz bunu - kütləvi pulsuz dispanserizasiyanı həyata keçiririk. Yeri gəlmişkən, bu il pandemiya ucbatından onu keçirmədik. Beş milyondan çox insan öz sağlamlığını yoxlamaq üçün gəlir. İdmanda da belə olmalıdır. Mən deyirəm: idmanla məşğul olun, faydasını görəcəksiniz, sizin fiziki formanızın, əhvalınızın, iş qabiliyyətinizin necə yaxşılaşacağını görəcəksiniz. Buna görə indi mən imkanı olmayanların hamısına məsləhət görürəm: internet resurslarından istifadə edin, orada idmanla evdə məşğul olmaq üçün çoxlu məsləhətlər, çoxlu proqramlar var.

Karantin rejiminə gəldikdə isə, mən prinsip etibarilə intizamlı adamam. Buna görə mənim ictimai tədbirlərimdə ən çoxu 9 nəfər olur. Bizdə on nəfərdən çox adamın bir yerdə toplaşması qadağandır. Lakin mən ehtiyat üçün həmişə deyirəm, 9 nəfərdən çox olmamalıdır. Ən çoxu 10 və ya 9 nəfər. Bir də, əlbəttə, məsafəyə riayət edirəm. İctimai xarakterli tədbirlərdə də, görüşlərdə də belə olub. İlin birinci rübünün yekunlarına həsr olunmuş iclası videokonfrans rejimində keçirdik. Amma deməliyəm ki, bu iclas əvvəl keçirdiklərimizdən o qədər də fərqlənmədi. Mənim tabeliyimdə olan işçilərlə söhbətlərim də videokonfrans formatında keçirilir. Yəni, insan prinsip etibarilə hər şeyə alışır. Buna da vərdiş etmək lazımdır. Amma sualınıza görə sağ olun. Fürsətdən istifadə edib, bir daha hamıya müraciət edirəm: idmanla məşğul olun, özü də müntəzəm surətdə.

**-İlham Heydər oğlu, gələcəkdə pandemiyanın başa çatmasından danışarkən Siz, mənim fikrimcə, çox düzgün, dəqiq bir söz işlətdiniz: Qələbə. Yəqin bilirsiniz, bəlkə də görmüsünüz: TASS agentliyinin fotomüxbiri Yevgeni Xaldeyin “Reyxstaq üzərində Qələbə bayrağı” adlı fotoşəkli var. Bizim TASS agentliyi pandemiya üzərində qələbənin rəmzi olacaq gələcək fotoqrafiya üçün ümumdünya müsabiqəsi elan edib. Sizin fikrinizcə, həmin fotoqrafiyada nə ola bilərdi?**

-Əlbəttə, çox yaxşı təşəbbüsdür. Buna görə sizə təşəkkür etmək istərdim. Mənim fikrimcə, bu müsabiqə təkcə rəssamların yox, hamının böyük marağına səbəb olacaq. Ona görə ki, bu gün bu mövzu hər kəsi narahat edir və hər kəsi bu xəstəliyə qalib gəlmək istəyi, öz yaxınlarını xəstəliyin ağır fəsadlarından qorumaq istəyi birləşdirir. Buna görə düşünürəm ki, həmin fotoqrafiya və ya simvol bu cür birləşdirici xarakter daşımalıdır. Bir də, şübhəsiz, dünya pandemiyaya qalib gələndə bunun rəmzi insan, onun zəkası olmalıdır. Ona görə ki, vaksin icad edildində insanın zəkası bu xəstəliyə qalib gələcək. İnsanın iradəsi. Ona görə ki, çətin dövrdə çox məsələləri məhz iradə qüvvəsi həll edir. Əlbəttə, mərhəmət hissi də. Ona görə ki, vəziyyətin çox mürəkkəb olmasına, çoxsaylı insan tələfatına baxmayaraq, mənim fikrimcə, ictimai şüurda mərhəmət səviyyəsi xeyli yüksəlib, insanlar anlayırlar ki, təbiətin və Allahın qarşısında hamı bərabərdir, hər kəs öz yaxınları qarşısında məsuliyyət göstərməli və özünü ləyaqətlə aparmalıdır. Buna görə mövzular palitrası bir qədər geniş ola bilər, lakin əminəm ki, bu müsabiqə bir simvolika ilə kifayətlənməyəcək. Düşünürəm ki, burada ən yaxşı duyğular, ən yaxşı arzular, insanın və insanlığın ən yaxşı keyfiyyətləri cəmləşməlidir.

-Çox sağ olun, İlham Heydər oğlu. Allahın izni ilə və necə deyərlər, böyük dünya elminin köməyi ilə pandemiya üzərində o qələbə gününə qədər yaşamaq lazımdır. Faşizm üzərində Böyük Qələbə bayramı isə bu günlərdə qeyd ediləcək. Sizinlə bizim söhbətimizi milyonlarla rusiyalı görəcək və düşünürəm ki, bu söhbəti görənlər təkcə rusiyalılar olmayacaq. Sizdən bir xahiş edə bilərəmmi: mayın 9-da Moskvada olsaydınız, deyəcəyiniz sözlərlə müraciət edin.

-Mən bizim hamımızı, veteranları, bugünkü nəsli, gəncləri təbrik etmək istəyirəm. Bu, sovet xalqının qələbəsi, Sovet İttifaqının tarixi əhəmiyyət kəsb edən qələbəsidir. Bu qələbəyə keçmiş Sovet İttifaqının hər bir xalqı dəyərli töhfə verib. Söhbətimizin əvvəlində qeyd etdiyimiz kimi, qəhrəyi taun milyonlarla insanın həyatı bahasına məğlub edilib. Buna görə mən, ilk növbədə, veteranlara dərin hörmətimi, həlak olanların xatirəsinə ehtiramımı bildirirəm. Bu gün biz onların sayəsində yaşayırıq, müstəqil dövlətlərdə yaşayır və öz taleyimizi qururuq.

Əlbəttə, gənc nəslə müraciətlə demək istərdim ki, onlar öz əcdadları kimi fədakarcasına, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, qəhrəmanlıq göstərsinlər, öz Vətənini müdafiə edərkən canlarını, həyatlarını əsirgəməsinlər. Bu, elə bayramdır ki, biz onu daim qeyd etməliyik. Bu, elə bayramdır ki, bütün mütərəqqi bəşəriyyəti, bütün sülhsevər insanları birləşdirir. Əlbəttə, sizinlə artıq müzakirə etdiyimiz kimi, biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək cəhdləri ilə barışmamalıyıq. Buna görə mən bütün veteranlara, bu gün sırada olanların hamısına bu cür arzularla müraciət edirəm, Allah onlara uzun və sağlam ömür versin.

-Hörmətli İlham Heydər oğlu, bu söhbətə görə çox sağ olun. Sizi qarşıdan gələn Qələbə bayramı münasibətilə təbrik edirəm. Sizə arzum budur ki, Azərbaycan Sizin rəhbərliyinizlə bu pandemiya üzərində tezliklə qələbə qazansın. Sizə ən xoş diləklərimizi bildirirəm. Çox sağ olun.

# Ulu Öndər Heydər Əliyev: Dahilik və əbədilik simvolu!



*Məhərrəm Əliyev,
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik*

***Biz dövlətçiliyimizin qorunması, müdafiəsi, vətəndaşlarımızın mühafizəsi, təhlükəsizliklərinin qorunması, ən nəhayəti isə, ölkəmizin inkişafı naminə dönməz mövqe sərgiləməyi məhz Ulu Öndərimizin qətiyyətindən öyrənmişdik, bəhrələnmişdik!***

Tarix sübut edir ki, hər bir xalqın, dövlətin inkişaf və tərəqqisində dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu var və bu önəmli faktor xalqımızın da şərəf salnaməsinə yazılıb. Bu baxımdan, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun taleyində əsaslı dönüş yaradan, müstəqilliyi itirmək təhlükəsindən xilas edən, dövlətçiliyi əbədi və dönməz edən Heydər Əliyev kimi dahi rəhbəri olub.

Heydər Əliyev dühasının daha bir önəmi ondadır ki, bu böyük ad özündə əbədiyyəti nümayiş etdirir. Əbəs deyil ki, müasir dövrümüzün ədibləri bu dahi insanı "Sönməz Günəş" deyə tərənnüm ediblər. Yaşadığımız hər bir anın, hər bir ömür səhifəsinin vərəqində Heydər Əliyev mücəssəməsi yaşamaqdadır. Onunla bağlı olan əvəzsiz xatirələrim də həmin reallığı əks etdirməkdədir. Belə ki, hələ Moskvada xüsusi orta milis məktəbində təhsil aldığım illərdə Ulu Öndərin çıxışlarını izləyir, hətta imtahanlar verərkən Heydər Əliyevdən mühüm iqtibaslar, qiymətli sitatlar gətirirdim. Ona görə də, həyatımın gələcək fəaliyyətinin müəyyənləşməsində Onun adının, imzasının olması gerçəklikdir və əlbəttə ki, bu, eyni zamanda dahi şəxsiyyətə - Ulu Öndər Heydər Əliyevə olan xüsusi rəğbətimin bariz təzahürü idi. Ancaq daha bir danılmaz amil bu idi ki, Heydər Əliyevə bütün dövrlərdə tükənməz maraq olub. Təsadüfi deyil ki, hər kəs Onun iti zəkasına, idarəçilik məharətinə həsəd aparır, barəsində çox müsbət fikirlər səsləndirir, liderlik keyfiyyətlərinin özünəməxsusluğu barədə danışırdı. Yəni o da əbəs deyil ki, Heydər Əliyevin qüsursuz, anlaşıqlı, dolğun, qətiyyətli, eləcə də mətnsiz şəkildə etdiyi çıxışları həm də onu ustad bir müəllim kimi xarakterizə edirdi.

### Həmin anda mən əmin idim ki, bu gediş deyil, tarixi dönüşün başlanğıcı idi

Ən böyük xoşbəxtliyim və ömrüm boyu unutmayacağım hadisə isə Heydər Əliyevlə yaxından tanış olmaq imkanının mənə nəsib olmasıdır. Ulu Öndərlə ilk görüşüm isə məhz tarixi məqamlara söykənir. Belə ki, sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciə törətdiyi ən ağır vaxtda Heydər Əliyev həyatını təhlükə altına ataraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib, 20 Yanvar faciəsinə siyasi qiymət verərək, mərkəzin və respublika rəhbərliyinin hüquqazidd əməllərini ifşa etmişdi. Tarixin məsuliyyətli və çətin, lakin şərəfli dövründə xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev həmin ilin iyulunda Bakıya gəlir və Onu qarşılayanlardan biri kimi Ulu Öndərimizlə ilk tanışlığımız olur. Lakin həmin çətin vaxtlarda qardaşı Cəlal Əliyevin evində qalan Heydər Əliyevə qarşı təhdidlər səngimir, xəyanətkar qüvvələr isə Onu Bakını tərk etmədiyi təqdirdə istənilən hadisənin baş verə biləcəyi ilə hədələyir, təhdid edirdilər. Nəticədə Heydər Əliyev Naxçıvana getmək məcburiyyətində qalır. Yaxşı xatirimdədir, Cəlal Əliyevlə görüşümüzdən sonra ertəsi gün Heydər Əliyevi Naxçıvana yola salmaq üçün aeroporta apardıq və Onu təyyarənin salonunadək ötürdük. Həmin anda mən əmin idim ki, bu gediş deyil, tarixi dönüşün başlanğıcı idi və bu an - bilavasitə Heydər Əliyev dühasının qətiyyətli varlığı artıq müstəqil Azərbaycanın tarix salnaməsinə qızıl hərflərlə həkk olunmağa başlamışdı.

Sonralar da Naxçıvanda olarkən, Ulu Öndərlə görüşlərimiz oldu. Yaşının çox və səhhətində müəyyən problemlərin olmasına baxmayaraq, hər zaman qamətli duruşu, daxili gücə və özgüvənə sahib olması, simasında ifadə olunan möhkəm iradə və qətiyyət, səsindəki amiranəlik Ümummilli Liderin bundan sonra da xalqına xidmət etmək iqtidarında olduğunu kifayət qədər əks etdirirdi. Bu gerçəklilərdən həm də belə bir nəticə hasil olunurdu: Təbiətən çox təmkinli olsa da, baş verən haqsızlıqlara qarşı hər zaman barışmaz mövqedə idi. O, güclü siyasi fəhmə, taleyüklü məsələləri həll etmək bacarığına, dəmir iradəyə və zəngin idarəçilik təcrübəsinə malik şəxsiyyət idi!

### Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, atəşkəsə nail olunub, dövlətlə xalqın birliyi təmin edilib

Biz əminliklə vurğulaya bilərik ki, tükənməz Azərbaycançılıq məfkurəsinin parlaq mücəssəməsi olan Heydər Əliyev faktoru öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasına, dünyaya örnək olaraq təqdim olunmasına nail olub. Hadisələrə şahidlik edən tariximiz də bunu mərhələlərlə sübut edir.

1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımız çox çətin sınaqlardan keçmiş, qanı bahasına qazandığı müstəqilliyi yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. Həmin dövrdə Azərbaycanda müstəqil dövlətçilik maraqları ilə üst-üstə düşməyən, bir çox hallarda isə onlara zidd olan qeyri-ardıcıl, səriştəsiz siyasətin aparılması, silahlı birləşmələrin özbaşınalığı, xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü bu təhlükəni daha da dərinləşdirirdi.

Məhz belə bir ağır dövrdə - 1993-cü ildə xalqımızın təkidi və iradəsi ilə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdaraq müstəqilliyimizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı öz üzərinə götürdü. Hətta o dövrdə təsəvvür etmək çətin idi ki, ömrünün müdrik çağında olan və çoxsaylı təhdidlərə məruz qalan Heydər Əliyev yenidən hakimiyyətə qayıtsın. Lakin buna rəğmən, O güclü şəxsiyyətin heç nədən çəkinmədən, öz həyatını belə təhlükəyə ataraq meydana atılması xalqı və dövləti qarşısında misilsiz fədakarlığı idi. Şübhəsizdir ki, Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, atəşkəsə nail olunub, dövlətlə xalqın birliyi təmin edilib.

### Dahi rəhbərin qarşımızda qoyduğu tapşırıqları yerinə yetirmək ən ümdə vəzifəmiz idi

Həyatımın hər bir anında keçirdiyim qürur hissim sonsuz və tükənməzdir. Belə ki, 10 ilə yaxın müddətdə Heydər Əliyev kimi dünya şöhrətli dahi şəxsiyyətlə birgə çalışmağım, Onun rəhbərliyi ilə keçirilən tədbirlərdə iştirak etməyim mənə həmin hissləri yaşatmaqdadır.

Ümummilli Liderimizin müvafiq qərarı ilə 1993-cü ildən uzun müddət Bakı şəhəri Baş Polis İdarəsinin rəisi vəzifəsində fəaliyyət göstərmişəm. Müstəqilliyini itirmək təhlükəsindən yenicə xilas olmuş ölkəmizdə həqiqətən də gərginlik müşahidə olunurdu. 1993-1998-ci illərdə paytaxt Bakı kimi böyük bir şəhərin təhlükəsizliyi, sözsüz ki, təmin olunmalı idi. Xaricdən təlimatlandırılmış qarağuruhçu qüvvələr demək olar ki, günaşırı mitinqlər, aksiyalar, küçə yürüşləri keçirir, müxtəlif sifariş və təxribat xarakterli addımlar atılırdı. Bütün bunların öhdəsindən gəlmək isə asan iş deyildi. Ancaq dahi rəhbərin qarşımızda qoyduğu tapşırıqları yerinə yetirmək ən ümdə vəzifəmiz idi. Biz dövlətçiliyimizin qorunması, müdafiəsi, vətəndaşlarımızın mühafizəsi, təhlükəsizliklərinin qorunması, ən nəhayəti isə, ölkəmizin inkişafı naminə dönməz mövqe sərgiləməyi məhz Ulu Öndərimizin qətiyyətindən öyrənmişdik, bəhrələnmişdik!

Ümumiyyətlə, Heydər Əliyevin böyüklüyü, dövlətçilik səriştəsi həm də onda idi ki, o, hüquqi dövlət quruculuğu işində humanizm prinsiplərindən yerində və düzgün istifadə etməyi uzaqgörənliklə, müdrikliklə bacarırdı. Onun hər zaman xalqının yanında olduğuna, onu böyük bir izdihamın müşayiət etdiyinə, hər bir vətəndaşa qayğı ilə yanaşdığına şahid olmuşam. Heydər Əliyev Azərbaycanı Vətən, dövlət olaraq çox sevirdi, azərbaycanlı olması ilə fəxr edirdi. Azərbaycan kəlməsini gözləri yaşara-yaşara söyləməsi Onun Vətənə olan sevgisinin əyani təzahürü idi. Xalqın əbədi sevgisini qazanan Ulu Öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Azərbaycan dağılmaqda olan ölkədən inkişaf edən ölkəyə, vətəndaş müharibəsi astanasında olan ölkədən vətəndaş həmrəyliyi olan ölkəyə çevrildi. Məhz belə bir məqamlarda Heydər Əliyev şəxsiyyətinin rəhbərliyi altında çalışmaq mənə, mənimlə çalışan əməkdaşlara davamlı stimul verirdi. Bütün bunlar unudulmayacaq qürur, yaddan çıxmayacaq fərəh və şərəf gerçəkliyidir.

Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Ali Baş Komandanımız İlham Əliyev çağdaş dünyamızın müasir liderlik faktoru olaraq dəyərləndirilməkdədir. Söz yox ki, ölkəmiz müasir dövrün yenilənən çağırışlarına uyğun olaraq bütün sahələrdə dərin islahatlar yolu ilə uğur sözünü deməkdədir. Düşünürəm ki, bizim buradakı ən böyük vəzifəmiz Ümummilli Liderin ideyalarının inkişafı və Azərbaycan tarixinin yeni şanlı səhifələrinin yazılması naminə Prezident İlham Əliyevin ətrafında sıx birləşməyimiz, Ona öz fəaliyyətimizlə dəstək olmağımızdır. Belə ki, hər kəs üzərinə düşən vəzifənin məsuliyyətini dərindən anlamalı və Ulu Öndər Heydər Əliyevin bu tarixi kəlamını xatırlamalıdır: "Vəzifəli adam öz xalqına qulluq etməlidir". Bəli, məhz birinci növbədə vəzifə sahibləri xalqa ləyaqətlə xidmət etməlidirlər. Bunu cənab Prezident İlham Əliyev də dəfələrlə öz çıxışında vurğulayıb və qeyd edib ki, hər bir dövlət məmuru xalqının xidmətçisi olmalıdır, bu faktor dövlət idarəçiliyinin başlıca məqsədidir!

### Heydər Əliyev dühasının əbədiliyini İlham Əliyev cənablarının müəyyən etdiyi dönməz, qətiyyətli, müdrik siyasətinə dəstək verməklə yaşatmalı, inkişaf etdirməliyik!

Daha bir məqama toxunmaq istərdim ki, bu gün Azərbaycanda Ordu quruculuğu prosesi də Heydər Əliyev siyasətinin davamı olaraq inkişaf etməkdədir. Güclü Orduya və ən müasir hərbi sənaye imkanlarına malik olan Azərbaycanın Silahlı Qüvvələri beynəlxalq aləmin müxtəlif ordu reytinqlərini müəyyən edən cədvəllərində, sorğu nəticələrində yüksək mövqeyə sahibdir. Bütün bunlar eyni zamanda, Ali Baş Komandanımız, cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğısının bariz nəticəsidir.

Düzdür, bu gün ərazilərimizin 20 faizini işğal altında saxlayan təcavüzkar Ermənistan dövlətinin rəhbərliyi müxtəlif bəhanələri ilə danışıqlar prosesini pozmağa cəhdlər göstərirlər, amma fakt budur ki, artıq onların qaçacaq bir yerləri də yoxdur. Azərbaycanın 2016-cı ildəki Aprel uğuru, habelə 2018-ci ildə əldə etdiyi Günnüt qələbəsi davam edə və zəfər bayrağımız işğal edilmiş bütün ərazilərimizdə dalğalana bilər. Artıq Azərbaycanın qüdrətli Silahlı Qüvvələri nəinki regionun, eləcə də beynəlxalq təhlükəsizliyin təmin olunmasında, qorunmasında əsaslı mövqeyə malikdir. İllərdir ki, Azərbaycan zabiti və əsgəri istər NATO təlimləri çərçivəsində, istərsə də ayrı-ayrı ölkələrlə keçirilən iri miqyaslı hərbi təlimlərdə, habelə beynəlxalq terrorla mübarizə məsələlərində öncül yerlərə sahib olmaqdadır. Bu isə, eyni zamanda Azərbaycan dövlətinin ildən-ilə daha da güclədiyini, beynəlxalq nüfuzunun artdığını, dünyada sayılıb-seçilən, mövqeyinə hörmətlə yanaşılan ölkələrdən birinə çevrildiyini göstərən sübutdur. Bu baxımdan da çıxış edərək belə nəticəyə gələ bilərik ki, torpaqlarımızı düşmən tapdağından azad etmək üçün bundan sonra da Ordumuzun gücünü artırmalıyıq. Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirilməkdə davam edir, hərbçilərimizin xidmət şəraiti, sosial vəziyyətlərinin daha da yaxşılaşdırılması istiqamətində münbit addımlar atılır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti və xalqı işğal faktı ilə heç vaxt barışmaq fikrində deyil, hər an torpaqlarını düşməndən azad etməyə hazırdır. Ona görə də xalqımız bir olmalı, dövlətimizin apardığı siyasəti və Ulu Öndər Heydər Əliyevin bizlərə miras qoyduğu müstəqil Azərbaycanın inkişafını dəstəkləməli, Ali Baş Komandan, ölkə rəhbərimiz cənab İlham Əliyevin ətrafında daha da sıx birləşməlidir. Biz, Heydər Əliyev dühasının əbədiliyini İlham Əliyev cənablarının müəyyən etdiyi dönməz, qətiyyətli, müdrik siyasətinə dəstək verməklə yaşatmalı, inkişaf etdirməliyik!

# Heydər Əliyev yolu Azərbaycan tarixinin uğur səhifəsidir

**"Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"**

Müstəqil Azərbaycanın xilaskarı, yaradıcısı, ulu öndər Heydər Əliyevin hər bir azərbaycanlının həyat amalına çevrilən, bütün dövrlər üçün aktuallığını qoruyan bu tezisi Onun ömrünün mənasını təşkil etmişdir. Dahi şəxsiyyətin hakimiyyətinin hər iki dövrünə nəzər saldıqda yalnız və yalnız dövlətinə, xalqına bağlılığını, sevgisini görmək mümkündür. Ümummilli Liderin Azərbaycana ilk rəhbərlik etdiyi dövr ölkə tarixinə siyasi, iqtisadi, mədəni yüksəliş və intibah dövrü kimi daxil olmaqla, xalqın milli mənlik şüurunun oyanışına, özünüdərkin güclənməsinə böyük stimul vermişdir. 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nin Birinci katibi vəzifəsinə seçilən ulu öndər Heydər Əliyev özünün yüksək idarəçilik keyfiyyətləri sayəsində o dövrdə hökm sürən Sovet ideologiyasının bütün sədlərini aşmaqla movcud olan total qadağalara baxmayaraq Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkərək, insanları bütün sahələrdə böyük yüksəlişlərə ruhlandırmışdır. Məhz o dövrdə atılan uğurlu addımların nəticəsində Azərbaycan keçmiş İttifaqın tərkibində olan digər müttəfiq respublikalar sırasında ən sürətlə inkişaf edən ölkə olmuşdur. Ümummilli Liderin o dövrdə gordüyü işlər Onun Azərbaycanı gələcəkdə müstəqil görmək istəyini ortaya qoyurdu. Ölkənin iqtisadi qüdrətinin artırılması ilə yanaşı, təhsil və elm ocaqlarının yaradılmasına, hərbi kadrların hazırlanmasına göstərdiyi diqqət bunun bariz nümunəsidir. Həmin illərdə minlərlə Azərbaycan gənci keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaga göndərildi, C.Naxçıvanski adına hərbi lisey yaradıldı. Bu gün böyük inamla qeyd edirik ki, müstəqil Azərbaycana hərbi sahədə ləyaqətlə xidmət edən, ali hərbi rütbələrə qədər yüksələn onlarla zabitimiz həmin məktəbin məzunları, müxtəlif dövlət strukturlarında yüksək vəzifə tutan şəxslərin əksəriyyəti məhz həmin illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Sovet İttifaqının ən aparıcı ali məktəblərində təhsil alan şəxslərdir.

Ulu Öndərin tarixi missiyasının ən parlaq dövrü isə 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlamışdır. Başqa sözlə desək, xalqımız 1991-ci ildə müstəqilliyinə qovuşsa da bu sevinci ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yaşadı. Dahi şəxsiyyət o çətin illərdə xalqının səsinə səs verməklə bir daha Vətən, xalq, dövlət məfhumlarının onun üçün nə qədər əziz olduğunu göstərdi. Ümummilli Liderin aforizmə çevrilən "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq ondan da çətindir" tezisi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinin, qorunmasının önəminə işıq saldı. Xalqımız Heydər Əliyev yolunun ölkəmizə qazandırdığı uğurları gördükcə sabaha daha böyük ümidlərlə addımladı. Vətənini, ölkəsini, xalqını sevən liderə milyonların sevgisi şəksizdir. 1993-cü ildən başlanan Heydər Əliyev yolu hər günü Azərbaycanın tarixinə uğur səhifəsi kimi yazır. Heç də səbəbsiz deyil ki, bu gün Azərbaycan xalqı beynəlxalq qurumların hesabatlarında dünyanın ən xoşbəxt xalqı kimi qərar tutub. Xalq-Prezident birliyi, həmrəyliyi davamlı uğurların, hər bir xalqın xoşbəxtliyinin açarıdır. Ən əsası azərbaycançılıq ideyası ətrafında sıx birlik müstəqillik yolunda ilk addımlarını atan bir dövlətin beynəlxalq aləmdə təqdimatına stimul oldu.



*Siyavuş Novruzov, YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri*

### Sabitlik, firavanlıq, inkişafa aparan yol

Arxada qalan hər il Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha aydın göstərir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra hər gününü tarixinə uğur səhifəsi kimi yazan Azərbaycan sürətli inkişafı ilə sanki zamanı qabaqladı. Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, bu uğurlar böyük səylərin, qətiyyətin nəticəsidir.

Təbii ki, bu inkişafın icində olan kəs bəzən əldə olunan uğurların, baş verən yeniliklərin fərqində olmur, amma baş verənləri kənardan izləyənlər nəinki gündən-günə, hətta hər saat, hər saniyə bu inkişafı görür, onun dayanıqlılığının qaçılmaz olduğunu günün əsas reallığı kimi qəbul edir. Bu inkişafa əsas verən başlıca amil ölkədə sabitliyin, insanlarda sabaha inamın yaranması idi. Azərbaycan xalqı dövlətçiliyimizin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü bir zamanda, yəni, 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını tələb etdi. 1991-ci ildən 1993-cü ilin iyununadək olan dövr cətin, təlatümlü dövr idi. Ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, şəxsi ambisiyalarının quluna çevrilmələri, dövlət, xalq kimi məfhumları maraqlarının arxasında gizlətmələri Azərbaycanın gələcəyi üçün qaranlıq olan bir mənzərəni yaratmışdı. Azərbaycanın bir dövlət olaraq varlığı şübhə altında idi. Azərbaycan tarixinə qaranlıq bir dövr kimi yazılan o illər hakimiyyət hərisliyinin hansı uğursuzluqlara yol açdığını bir daha nümayiş etdirdi. Bir illik hakimiyyətləri dövründə Azərbaycanı "olum, yoxsa ölüm" dilemması qarşısında qoyan AXC-Müsavat cütlüyünün yarıtmaz siyasətinin xalqın sabaha ümidlərini itirdiyi bir zamanda dahi şəxsiyyət Heydər Əliyev xalqın yanında oldu. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı müstəqilliyimizin ilk illərinin xaosundan, anarxiyasından, özbaşınalıqlarından, iqtisadi tənəzzülündən xilas etdi.

Ümumiyyətlə, xalqa xidmət etmək Ulu Öndərin başlıca missiyası idi. Azərbaycanin müstəqilliyə qədərki dövründə də, müstəqillik illərində də ulu öndər Heydər Əliyev daim xalqın yanında idi. Bu məqamı xüsusi qeyd etməliyik ki, müstəqilliyimizə qəsd kimi dəyərləndirilən 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Ümummilli Lider Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirmiş, Sovet rəhbərliyini, Kommunist Partiyasını ittiham etmiş, bu qanlı faciəni pisləmiş və bütün dünyaya bu həqiqəti çatdırmışdır. Ondan sonra Kommunist Partiyasının sıralarını tərk etmişdir. Bu cəsarətli addım Ulu Öndərin xalqa nə qədər bağlı olduğunu göstərdi.

Dövlətimizin başçısı İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə tariximizin ayrı-ayrı dövrlərinin təhlili fonunda müstəqillimizin ilk illərinin aydın mənzərəsini təqdim etmişdir. "Müstəqilliyə gedən yol da Heydər Əliyevin adı ilə bağlıdır" söyləyən cənab İlham Əliyev bir daha bu reallıqları diqqətə çatdırmışdır ki, Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar, ikisi Moskvaya, biri Kələkiyə. Bu fərarilikdir, satqınlıqdır, xəyanətdir: "Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər."

Düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə daxili sabitliyi təmin edən ulu öndər Heydər Əliyev bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Ümummilli Liderin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması da sabitliyin təminatında və digər sahələrin inkişafında əhəmiyyətli rol oynadı. Bu mühüm məqamı da qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində, həmçinin pərdəarxası oyunlara, siyasi anarxiyaya son qoyuldu, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Belə ki, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişləri cəhdlərinin qarşısı Ümummilli Liderin qətiyyəti sayəsində alınaraq dövlət müstəqilliyimizin qorunub saxlanılması təmin edildi. Bütün bu addımlar isə öz növbəsində Azərbaycanda müstəqil dövlət təsisatlarının yaranmasını, ilk Konstitusiyanın qəbulunu zərurətə çevirdi.

### Xeyirxahlıq və humanism

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra demokratik, hüquqi dövlət quculuğu istiqamətində uğurlu addımlar atıldı. Bu xeyirxahlıq onun hakimiyyətinin hər iki dövrü üçün səciyyəvi idi. Əvvəldə də qeyd etdiyimiz kimi, Ümummilli Lider hakimiyyətinin birinci dövründə hər il dövlət hesabına keçmiş İttifaqın ayrı-ayrı şəhərlərində yüzlərlə Azərbaycan gəncinin müxtəlif ixtisaslar üzrə təhsil almalarına nail olmuşdu. Uzun illər davam edən bu proses nəticəsində güclü mütəxəssislər ordusu formalaşdı, çoxsayli alimlər yetişdi. Bu gün Azərbaycanın müxtəlif sahələrində çalışan həmin dövrun məzunları dahi şəxsiyyət Heydər Əliyevin xeyirxah əməllərindən böyük minnətdarlıq hissi ilə bəhs edirlər. Xeyirxahlıq, mərhəmət, ehtiyacı olanlara maddi və mənəvi dəstək kimi keyfiyyətlər Ümummilli Liderin fəaliyyətinin əsas istiqamətlərindən olub.

Ümummilli Liderin bilavasitə rəhbərlik etdiyi komissiya tərəfindən işlənib hazırlanan və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin demokratik dəyərlərə sadiq dövlət kimi inkişafına geniş yol açdı. Konstitusiyada əksini tapan maddələrin böyük əksəriyyəti insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. 1998-ci il fevralın 10-da ölüm hökmünün ləğvi ilə Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşdü. Ümummilli Lider ölüm hökmünü ləğv etməklə bəşəri humanizmə, beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirdi.

1995-ci ildən başlayaraq mühüm hadisələr, bayramlar ərəfəsində əfv Fərman və sərəncamlarının imzalanması, Amnistiya aktlarının qəbulu sistemli xarakter aldı. Səhvini anlayan, əməllərindən peşmançılıq keçirənlər ulu öndər Heydər Əliyev tərəfindən əfv edilir, yenidən normal həyata qayıtmalarına imkan yaradılırdı. 1995-2003-cü illərdə 32 əfv Fərman və Sərəncamı imzalayan, 7 Amnistiya aktını qəbul edən Ümummilli Lider humanizmin ölkədə həyata keçirilən hüquqi siyasətin əsas prinsiplərindən biri oldugunu təsdiqlədi.

Son 16 ildən artıq dövrdə bu siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki bu müddət ərzində 34 əfv Sərəncamı, 4 Amnistiya aktı qəbul olunub. Azərbaycanda, onun hüdudlarından kənarda mərhəmət, insansevərlik, şəfqət, nəciblik mücəssiməsinə çevrilən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Milli Məclisin deputatı olarkən Amnistiya aktlarının qəbulu ilə bağlı qanunvericilik təşəbbüsləri ilə çıxış etmiş, on minlərlə məhkumun cəzası tam və qismən ləğv edilmişdir. Dövlətimizin başçısı İlham Əliyevin son aylar pandemiyanın dünyanı cənginə aldığı bir zamanda 6 aprel 2020-ci il tarixli " Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamına əsasən 176 məhkum azadlığa qovuşdu. Sərəncam koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yaşı 65-dən yuxarı olan məhkumlara şamil olundu.

Bütün bunlar bir daha təsdiqləyir ki, insanpərvərlik və humanizm prinsipləri 28 ildən artıq müstəqillik tarixinə malik olan Azərbaycanın dövlət siyasətinin təməl prinsipləri kimi təbliq və təşviq olunmaqdadır. Humanizm siyasəti vətəndaş-dövlət munasibətlərinin inkişafında da əsas amillərdən biridir. Bu baxımdan ki, dövlət hər bir vətəndaşının yanında olduğunu təsdiqləməklə əfv etdiyi insanların cəmiyyətə qayıtmalarına, qanunlarımıza riayət etmələrinə yenidən şans verir.

Ardı Səh. 8

# Heydər Əliyev yolu Azərbaycan tarixinin uğur səhifəsidir



**Əvvəli-Səh-7**

Demokratik cəmiyyətin varlığını təsdiqləyən amillərin - azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsinin təmin olunması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Mətbuat üzərindən senzuranın götürülməsi, siyasi partiyaların fəaliyyəti üçün zəruri şəraitin yaradılması, seçkilərin demokratikliyini, şəffaflığını təmin edən Seçki Məcəlləsinin qəbulu və sair kimi demokratik inkişafın əsasları son 16 ildən artıq dövrdə cənab İlham Əliyev tərəfindən daha da inkişaf etdirilir, təkmilləşdirilir. Azad mətbuatın inkişafına göstərdiyi diqqət və qayğıya görə 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülən ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyev son 16 ildə 3 dəfə bu mükafata layiq görülüb. Azərbaycanın demokratik, hüquqi dövlət qurculuğu yolunda atdığı addımların bariz nümunəsi kimi 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasını və 19 ilin bu əlaqələrə bələdçiliyini qeyd edə bilərik. Bu mühüm məqamı da xüsusi qeyd etmək lazımdır ki, Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə 3 dəfə keçirilən ümumxalq səsverməsinin biri (2002-ci ildə) ulu öndər Heydər Əliyevin hakimiyyəti illərinə, ikisi ( 2009 və 2016) cənab İlham Əliyevin Prezidentliyi dövrünə aiddir. Məqsəd insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə İnsan Hüquqları Günü kimi təsis edilməsi də təsadüfi deyil. Belə ki, ulu öndər Heydər Əliyev 1998-ci il 18 iyun tarixində ilk "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etmiş və insan hüquqlarının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur.

## "Əsrin müqaviləsi": İqtisadi tərəqqi, yüksək rifah

Hər bir ölkənin inkişafını şərtləndirən bir sıra amillər mövcuddur. Ölkənin malik olduğu təbii resurslardan səmərəli istifadə prioritet istiqamətlərdəndir. Ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi uzaqgörən siyasətindən irəli gəlirdi. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı transmilli şirkətləri ilə tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanması Azərbaycanın iqtisadi tərəqqisində və insanların yüksək rifahının təmin edilməsində əhəmiyyətli rol oynadı. Cənab İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibəti ilə xalqa təbrikində bildirmişdir ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, Azərbaycanın hazırkı iqtisadi inkişafını, beynəlxalq mövqeyini təsəvvür etmək çətin deyildi. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri olmasaydı Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəmərindən, onlar olmasaydı, Cənub Qaz Dəhlizindən danışmaq qeyri-mümkün idi.

Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz layihələrinin 2006 və 2007-ci illərdə reallığa çevrilməsi, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, 2018-ci ilin mayında dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunu artıran Cənub Qaz Dəhlizinin rəsmi açılışı, həmçinin həmin ilin iyununda Cənub Qaz Dəhlizinin əsas tərkib hissələrindən olan TANAP-ın istifadəyə verilməsi və sair kimi biri-birindən mühüm hadisələr "Əsrin müqaviləsi"nin ölkəmizə böyük uğurlar qazandırdığını bir daha dünyaya bəyan edir. Cari ildə isə TAP-ın istifadəyə verilməsi nəzərdə tutulur. Azərbaycan bu layihələrin uğurlu icrasına nail olmaqla dünyanın enerji xəritəsini dəyişir.

Neft gəlirlərinin idarə olunmasında şəffaflığın yüksək səviyyədə təminatı məqsədilə 1999-cu ilin dekabrında Ümummilli Liderin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunun vəsaitləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçilir ki, bunlar da ölkənin hərtərəfli inkişafını sürətləndirir. 1 aprel 2020-ci il tarixinə olan məlumata əsasən, Dövlət Neft Fondunun vəsaitlərinin həcmi 41 milyard dollardan artıqdır.

Ölkəmizin iqtisadi imkanlarının artması əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlara yol açdı. Neft gəlirlərinin düzgün istiqamətləndirilməsi nəticəsində digər neftlə zəngin ölkələrdən fərqli olaraq Azərbaycanda təbəqələşmə prosesi getmir, əksinə yoxsulluq və işsizlik problemlərinin aradan qaldırılması istiqamətində davamlı addımlar atılır. "Əsrin müqaviləsi" Azərbaycanı böyük investisiyalar məkanına çevirdi. Son 16 ildən artıq dövrdə ölkə iqtisadiyyatına 270 milyard dollardan artıq investisiya yatırılıb. Valyuta ehtiyatlarının həcmi 52 milyard dollardan artıqdır.

Bu gün böyük inamla qeyd edirik ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası ölkəmizə böyük uğurlar qazandırır. Neft siyasətinin məntiqi davamı kimi iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olması istiqamətində atılan addımların, həyata keçirilən regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində son 16 ildə 2 milyondan artıq yeni iş yeri yaradılıb. Yoxsulluğun səviyyəsi 4,8 faizdir. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə yoxsulluğun səviyyəsi 49 faiz idi. Möhtərəm Prezidentimiz İlham Əliyevin bölgələrə hər səfəri yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Bu gün bölgələrimizin siması tamamilə dəyişib, yol infrastrukturu yenilənib, işıq, su təminatı yüksək göstəricilərlə ifadə edilir. Minimum əməkhaqlarının, minimum pensiyaların, müavinətlərin məbləği artıb. Bütün bu uğurlar ulu öndər Heydər Əliyevin "Neft- Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" tezisinin reallıqda öz əksini tapdığının təsdiqidir.

## Azərbaycan: Regional iqtisadi inkişafın aparıcı qüvvəsi, dünya birliyinin fəal üzvü

Ölkəmizin iştirakçısı və təşəbbüscüsü olduğu layihələrin uğurlu icrası regional iqtisadi inkişafa böyük töhfələr verir. BTC və BTƏ neft-qaz layihələrinin icrası, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycan, Gürcüstan və Türkiyənin siyasi iradəsinin və qətiyyətinin nəticəsidir. Daim vurğulandığı kimi, əməkdaşlıq əlaqələri öncə regonal çərçivədən başlanmış və beynəlxalq əməkdaşlığa doğru inkişaf etmişdir. Artıq Cənub Qaz Dəhlizi çoxtərəfli əməkdaşlığın başlanğıcıdır. Getdikcə layihələrin əhatə etdiyi ölkələrin coğrafiyası genişlənir. İqtisadi müstəqilliyin təminatı siyasi müstəqilliyə geniş imkanlar açır. Belə ki, dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın iştirakı olmadan regionda hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi qeyri-mümkündür.

Azərbaycanın bayrağının dünyanın ən nüfuzlu təşkilatlarının qarşısında dalğalanması, dünyada gedən proseslərə təsir imkanlarının artması da ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Ümummilli Lider Azərbaycan həqiqətlərinin təbliğini, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasını qarşıya mühüm vəzifə kimi qoyaraq bu istiqamətdə davamlı addımlar atdı. Erməni yalanları əsaslı şəkildə dünyaya bəyan edildi, ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılmasına nail olundu. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni işğalçılarının bu ərazilərdən qeyd-şərtsiz çıxarılması öz əksini tapıb. Ulu Öndərin xarici ölkələrə elə bir səfəri yox idi ki, Dağlıq Qarabağ problemi əsas müzakirə mövzusu olmasın.

Son 16 ildən artıq dövrdə Ümummilli Liderin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin səyləri nəticəsində diplomatik uğurlarımızın miqyası daha da genişlənib. Belə ki, 2011-ci ildə Azərbaycanın 193 ölkədən 155- nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2019-cu ildə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünə, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünə ev sahibliyi Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin uğurlu siyasətinin təntənəsidir.

*Ardı Səh. 9*

# Heydər Əliyev yolu Azərbaycan tarixinin uğur səhifəsidir

Əvvəli-Səh-8

Azərbaycan haqqı, ədaləti müdafiə edən, bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsini istəyən ölkə olaraq dünya birliyində yeri və rolunu artırır.

Hazırda dünyanı bürüyən pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində də Azərbaycanın beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində atdığı addımlar təqdir edilir. Belə ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri, ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Bu çağırış olundu ki, qlobal problem olan pandemiya birgə addımların atılmasını, həmrəyliyin gücləndirilməsini tələb edir. Möhtərəm Prezidentimiz bu birliyin, həmrəyliyin coğrafiyasını genişləndirərək Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə " COVİD-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış edib. Böyük dəstək qazanan bu təşəbbüs bir daha Azərbaycan dövlətinin birgə əməkdaşlıqda, səylərin birləşdirilməsində nə qədər maraqlı olduğunu açıqlayır.

## Yeni Azərbaycan Partiyasına milyonların sevgisi şəksizdir

Ümummilli Liderin xalqımız qarşısındakı xidmətləri sırasında bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvə olan, sıralarında 750 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Tarixi zərurətdən, xalqın istəyi əsasında yaranan bu partiya qısa zamanda milyonların sevgisini qazandı. Yaranmasından 7 ay sonra iqtidar partiyasına çevrilən YAP hazırda nəinki ölkənin, hətta regionun aparıcı siyasi təşkilatına çevrilib. Ölkəmizin çətin günlərində, sabaha ümidlərin itdiyi bir zamanda tarixə "91-lər"in müraciəti kimi yazılan, xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalının Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı ulu öndər Heydər Əliyevə müraciəti, Onun müraciətə sabahımıza böyük ümidlərlə dolu cavabı bugünkü reallıqlarımızın əsası oldu.

1992-ci il noyabr ayının 21-də Naxçıvanda təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının hazırda sıralarında birləşən minlərlə üzvünün hər biri Heydər Əliyev ideyalarının, onun siyasi kursunu uğurla davam etidrən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır.

Azərbaycanın müstəqillik tarixinin bələdçisi olan Yeni Azərbaycan Partiyasına xalqın sevgisinin, inamının göstəricisi kimi ölkədə keçirilən seçki proseslərindən böyük qələbələrlə çıxması xüsusi önə şəkilir. Azərbaycanın uğurlarında payı olan YAP-ın fəaliyyətinin əsasında dövlətə, xalqa xidmət dayanır, partiyamız daim ölkəmizin qüdrətlənməsi, əhalinin sosial müdafiəsinin daha da ğücləndirilməsi istiqamətində yeniyeni hədəflərə doğru inamla irəliləyir. Partiyanın son növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı təşəbbüsü ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. YAP ölkədə bütün sahələri əhatə edən islahatların qanunverici orqanda da öz əksini tapmasında maraqlı olduğunu açıqladı. Cari ilin fevralın 9-da keçirilən növbədənkənar parlament seçkiləri Azərbaycanın demokratik inkişafının göstəricisi olmaqla yanaşı, Yeni Azərbaycan Partiyasının cəmiyyətdə artan nüfuzuna işıq saldı. Belə ki, partiya "Daha qüdrətli Azərbaycan naminə" deyib növbəti dəfə tarixinə uğur, qələbə səhifəsini yazdı. Sözlə əməl birliyi olan, populizmdən uzaq partiyaya xalqın dəstəyi qaçılmazdır.

## Heydər Əliyev yolunun davamı

2003-cü ildən sonrakı dövr Azərbaycan tarixinə müasirləşmə, yeniləşmə, təkmilləşmə illəri kimi daxil olub. 2003-cü ildə cənab İlham Əliyevin xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Prezident secilməsi Heydər Əliyev siyasətinin təntənəsi kimi dəyərləndirildi. Heydər Əliyev siyasətinə sadiq qalacağını yüksək kürsüdən bəyan edən dövlətimizin başçısı İlham Əliyev atdığı ilk addımdan vədini əməli fəaliyyəti ilə doğrultduğunu nümayiş etdirdi.

Hər sahədə davamlı inkişafın təmin olunması üçün səylər göstərildi. Ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə yüksək dəyər verməsi növbəti mərhələdə qeyri-neft sektorunun inkişafını sürətləndirdi. Regionların potensial imkanlarından səmərəli istifadə etmək məqsədilə regional inkişaf proqramlarının uğurlu icrası işsizlik, məşğulluq kimi məsələlərin həllinə geniş imkanlar açdı.

Azərbaycan təkmil islahatları ilə dünyanın diqqətində oldu. Dünya Bankının hesabatlarında ən islahatçı 20 ölkə sırasında qərarlaşan Azərbaycan, həmçinin biznes mühitinin yaxşılaşdırılması istiqamətində atdığı addımları ilə diqqətdədir. Bu isə öz növbəsində ölkəmizə investisiya axınını sürətləndirir. İqtisadi imkanların artması fonunda sosial müdafiənin gücləndirilməsi təmin olunur. Təkcə 2019-cu ilin və cari ilin sosial-iqtisadi göstəricilərinə diqqət yetirmək kifayətdir. Ötən il 4 milyondan artıq insanı əhatə edən 2 sosial paketin uğurlu icrası nəticəsində ayrı-ayrı sahələrdə çalışanların əməkhaqları artırıldı. İcra olunan iki sənəd əsasında minimum əmək haqqının məbləği 250 manata, minimum pensiyanın məbləği isə 200 manata çatdırılmışdır. Cari ilin əvvəlində minimum pensiyaların məbləği yenidən artırılaraq 230 manatdan yuxarı oldu.

Azərbaycanın hazırda pandemiyaya qarşı mübarizə tədbirlərinin gücləndirdiyi zamanda icrasına başladığı Tədbirlər Planı 4 səhəni, 20 fəaliyyət sahəsini əhatə etməklə 10 proqram icra olunur. Məşğulluq və sosial dəstək tədbirlərinin əhatə dairəsi genişlənir. Görülən tədbirlər, atılan addımlar Azərbaycanın iqtisadi və sosial imkanlarının təqdimatında, səhiyyənin inkişafında əhəmiyyətli rol oynayır. Dövlətimizin başçısı İlham Əliyev 2020-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə bir daha qeyd etmişdir ki, hec bir sosial layihə təxirə salınmayacaq.

Son 16 ildən artıq dövrdə Azərbaycan bütün sahələrdə biribirindən əhəmiyyətli uğurlara imza atıb. İqtisadi tərəqqi bütün istiqamətlərdə önəmli addımların atılmasını şərtləndirdi. İslahatların zamana görə təkmilləşməsi, idarəçilik sistemində yeniləşmə davamlı uğurları təmin edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirilən siyasətə dəstəyi fonunda gördüyü işlərin miqyası olduqca böyükdür. Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi fəaliyyətində sosial layihələrin icrasına xüsusi diqqət göstərir. Bu layihələrdə məcburi köçkünlərin və qaçqınların sosial müdafiəsinin gücləndirilməsi prioritetdir. Dövlətimizin başçısı İlham Əliyev bu günlərdə 3042 məcburi köçkün ailəsi üçün yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olarkən bildirilmişdir ki, Mehriban xanım Əliyevanın tapşırığına əsasən Sumqayıt şəhəri üçün yol xəritəsi hazırlanıb. Sumqayıt şəhərində inzibati binalarda çətin vəziyyətdə məskunlaşan köçkünlərimizin sayı 3 mindən bir az çoxdur. Onlar və Abşeron rayonunda inzibati binalarda çətin vəziyyətdə yaşayan 1500-dən çox insan bu məhəllələrdə məskunlaşdırılacaq.

Ölkə Prezidenti İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva hər zaman çıxışlarında qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə reallaşdırılan tədbirlərin ardıcıl xarakter daşıdığını önə çəkməklə həm də bu əminliyi ifadə edirlər ki, bunlar müvəqqətidir, tezliklə işğal altındakı torpaqlarımız azad olunacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Təbii ki, bu əminlik Azərbaycanın diplomatik mübarizədə qazandığı uğurlara və hərbi qüdrətimizə əsaslanır. Məhz bu uğurlara, cənab İlham Əliyevin düşünülmüş siyasətinə söykənərək vətəndaşlarımız bu inamı ifadə edirlər ki, pandemiyaya qarşı mübarizə öz müsbət nəticəsini verəcək, Azərbaycan sonrakı mərhələdə yeni iqtisadi və sosial inkişaf modeli ilə dayanıqlı inkişafını təmin edəcək. Dövlətimizin başçısı İlham Əliyevə ünvanlanan minnətdarlıq məktublarında da həyata kecirilən siyasətə dəstək öz aydın ifadəsini tapır. Bu əminlik də öz əksini tapır ki, cənab İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində Azərbaycan bu mübarizədən az itki ilə çıxacaq. "Biz birlikdə güclüyük!" çağırışına əməldə dəstək mübarizə tədbirlərinin nəticələrində də özünü qabarıq şəkildə büruzə verir.

## Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Ümummilli Liderin xidmətlərinin təqdimatında əhəmiyyətli rol oynayır

Ümummilli lider Heydər Əliyevin irsinin təbliği məqsədilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Ölkə Prezidenti İlham Əliyev 2015-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanı Vətənimizin ən ali mükafatı - "Heydər Əliyev mükafatı" ilə təltif edərkən bildirmişdir ki, Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır: "Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycannın olduğu kimi dünyaya təqdim edilməsi- bütün bu şərəfli funksiyalar bu Fondun üzərinə düşür."

Fondun Azərbaycan reallıqlarının - musiqimizi, xalçaçılıq sənətini, muğamı, digər mədəniyyət incilərimizi dünyaya təqdim etmək, təhsilimizin, səhiyyəmizin, dilimizin, tariximizin inkişafı, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində təbliğat xarakterli materialların yayılmasına yönələn işlərinin miqyası genişdir. Bu qurumun çoxşaxəli fəaliyyəti daim xalqımız tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini xüsusi qeyd etməliyik. Bu proqramın başlanması nəticəsində son illərdə ölkəmizdə 3 mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilib istifadəyə verilib. Fondun, onun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşkilatçılığı ilə həyata keçirilən layihələrin əsasında uşaqlara qayğı da xüsusi yer tutur. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və digər dərmanlarla təmin edilmişdir. Fondun "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində görülən işlər də təqdirəlayiqdir. Bu günlərdə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına bütün idarə və müəssisələr, strukturlar, sadə vətəndaşlar qoşularaq bu addımı mərhəmətin, xeyirxahlığın təcəssümü kimi dəyərləndirirlər. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü qoşulanlara təşəkküründə bildirmişdir: "Azərbaycan xalqının hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olması, əl-ələ verərək çətinlik və sınaqlardan birlikdə üzüağ çıxması bizim ən gözəl xüsusiyyətlərimizdən biridir. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlarımızın qoşulması bunu bir daha göstərdi. Bu nəcib təşəbbüsə qoşulan hər kəsə dərin minnətdarlığımı bildirirəm... Qoy, xoş əməllərin sayı artsın!"

16 ildən artıq yol keçən Heydər Əliyev Fondunun gördüyü işləri Mehriban xanım Əliyevanın bu fikirləri ilə ümumiləşdirə bilərik ki, insanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir.

Görülən işlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da xidmətləri böyükdür. Onun təkcə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi tədbirləri qeyd etmək kifayətdir. Leyla xanım Əliyevanın fəaliyyəti Azərbaycan gəncləri üçün örnəkdir. Onu da qeyd edək ki, Leyla Əliyeva xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə Dünya azərbaycanlılarının III qurultayında "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Məhz bu uğurlara söykənərək cənab İlham Əliyev ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə bildirmişdir: "Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik."

# Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi nadir şəxsiyyətlərdən biridir

*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradovanın yap.org.az-a müsahibəsi*

**- Bahar xanım, məlum olduğu kimi, mayın 10-da Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olur. Bu tarix Ulu Öndərin misilsiz xidmətlərinə bir daha işıq salır. İstərdik ki, bu barədə fikirlərinizi bölüşəsiniz...**

- Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi nadir şəxsiyyətlərdən biridir ki, Onun fəaliyyəti yalnız mənsub olduğu xalqa və Özünün qurduğu müstəqil dövlətimizə məxsus deyil. Bu insan Azərbaycanın dünya ictimai-siyasi tarixinə verdiyi ən böyük şəxsiyyətlərdən, dühalardan biridir. Hansı ki, Onun irsi bütün xalqlar, bütün millətlər və dövlətlər tərəfindən öyrənilir, örnək götürülür, Onun xalqa xidmət formulu və bu fenomenin fəaliyyəti haqqında sanballı elmi-tədiqiqat əsərləri yazılır. Əlbətə ki, Heydər Əliyevin mənsub olduğu xalq kimi bu bizim şansımızdır. Əgər xalq öz sırasından belə br şəxsiyyət yetişdiribsə, bu şəxsiyyət də xalqın həyatında əvəzsiz rol oynayıb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qurub, xalqımız üçün misilsiz xidmətlər göstərib. Biz Ulu Öndərimizlə qürur duyur, Onu böyük minnətdarlıqla xatırlayırıq. Hər zaman Heydər Əliyevin xalqımız və dövlətimiz üçün xidmətləri xatırlanır, böyük ehtiramla yad edilir, ruhuna dualar oxunur.

**- Siz uzun müddət Ulu Öndər Heydər Əliyevlə birlikdə çalışmısınız. Ulu Öndərimizlə bağlı ən maraqlı xatirələr yaddaşınızda hansı izlər qoyub?**

- Mənim Ümummilli Liderimiz Heydər Əliyevlə bağlı xatirələrim çoxdur. Bu həm uşaqlıq, həm gənclik, həm də yetkinlik dövrü ilə bağlıdır. İlk dəfə Onunla orta məktəbdə oxuyanda görüşmüsəm. Elə o zamandan da Heydər Əliyev mənim idealıma çevrilib.

Sonra vəziyyət elə gətirdi ki, SSRİ dağıldı, Azərbaycan müstəqilliyini elan etdi. 1992-ci ilin əvvəlində Azərbaycanın çətin vaxtlarında ölkəni mövcud dərin böhrandan çıxarmaq məqsədilə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı. Mən də bu partiyanın üzvü oldum.

Bundan sonra gənc qadınlar arasında müəyyən vəzifələrə ilk təyinat alanlardan biri də mən idim. Ən müxtəlif tədbirlərdə Ulu Öndər Heydər Əliyevlə birlikdə iştirak etmişəm, Onunla tədbirlərdə olarkən izlədiyim məqamlar mənim üçün unudulmazdır. Heydər Əliyevin şəxsiyyət olaraq möhtəşəmliyinə, şəxsiyyətinin zəngin çalarlarına heyran olmuşam. Heydər Əliyev yolunda xidmət etmək mənim ən böyük seçimimdir. Heydər Əliyevlə eyni düşərgədə təmsil olunmaq, Ondan tapşırıqlar almaq, bəzən ünvanına Onun dilindən xoş sözlər eşitmək mənim üçün xoşbəxtlikdir. Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələri olan hər kəs üçün bu belədir.

Əldə etdiyim bütün uğurlarımda da Ümummilli Lider və Onun ideyalarına sadiqliyin mühüm rol oynadığına dərindən inanıram. Heydər



Əliyevin gənclərə və onunla birlikdə Azərbaycana xidmət yolunu seçənlərə göstərdiyi diqqəti heç vaxt unuda bilmərəm.

Onu qeyd edim ki, Ümummilli Lider biz qadınların dövlət və ictimai həyata cəlb olunmağımıza xüsusi əhəmiyyət verməklə yanaşı, kadr kimi formalaşmağımıza da xüsusi diqqət yetirir və yeri gəldikdə bizi hər cür təhlükələrdən qorumağa çalışır, uğurlarımızı şəxsən dəyərləndirirdi. Bir YAP üzvü, Azərbaycan qadını kimi bu diqqət və himayəni həmişə üzərimdə hiss etmişəm. Mən özümü şanslı insanlardan biri hesab edirəm ki, Onu tanımışam, Onunla ünsiyyətdə olmuşam, Onun tapşırıqlarını yerinə yetirmişəm.

**- Ölkəmizin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaradılması Ulu Öndər Heydər Əliyevin xidmətlərinin tərkib hissəsidir. Ümummilli Lider Heydər Əliyev çağırışlarında partiyada qadınların, gənclərin təmsilçiliyinin artırılmasını diqqətə çatdırıb. Bu baxımdan, Azərbaycan qadınının ölkənin ictimai-siyasi həyatındakı rolunu necə qiymətləndrirsiniz?**

- Azərbaycan qadınları hər dönəmdə fəal olmuşlar. Bu, onun xarakterindən, yaşam tərzindən, malik olduğumuz dəyərlərdən qaynaqlanır. Azərbaycan qadını həm ailədə, həm cəmiyyətdə, həm də dövlət həyatında tarixən fədakarlıqlar göstərməklə yanaşı öz adını tarixin ayrı-ayrı səhifələrinə yazmağı bacarıb. Düzdür, müasir dövrdən fərqi olaraq əvvəlki dövrlərdə siyasətlə məşğul olan qadınlaırmız elə də çox olmayıb. Amma sənət, yaradıcılıq, elm, təhsil aləmində qadınlar müəyyən inkişaf yolu keçmişdi.

Biz bu gün həmin bünövrə əsasında davam edirik. Amma şəxsiyyətin tarixdə rolu, xüsusilə bu tarixin yaranmasında və yazılmasında bütün insanların, o cümlədən qadınların iştirakının təmin edilməsində rolu inkaredilməzdir. Bu mənada Azərbaycanın tarixində yenə də ən böyük rol birmənalı şəkildə Heydər Əliyevə məxsusdur.

Ulu Öndər Heydər Əliyevin sovet dönəmində o dövrün imkanlarından istifadə edərək qadınları ön sıralara çıxarmaq, cəmiyyət və dövlət həyatının aparıcı fiqurlarına çevirmək və həlledici inkişafa nail olmaq üçün atdığı addımlar müstəqillik dönəmində bizi doğurdan da irəliyə atmaq üçün, sıçrayışlı inkişafa nail olmaq üçün çox vacib bünövrə oldu. Müstəqilliyin ilk illərində məhz Yeni Azərbaycan Partiyasının yaradılması isə təkcə ictimai həyata deyil, həm də siyasi həyata qadınların geniş miqyasda qatılmasına rəvac verdi. Nəzərə alsaq ki, qısa müddətdə YAP iqtidar partiyasına çevrildi və özü ilə bərabər partiyanın həlledici kəsimlərindən olan qadınları da siyasi proseslərə geniş şəkildə qatılmasına şərait yaratdı. İlk gündən qadınlar həyatımızın bütün sahələrində geniş rol almağa başladılar. Xüsusilə gənc qadınlara diqqət göstərilirdi. Seçkili orqanlarda, təyinatlı vəzifələrdə qadınların təmsilçilyinə fikir verilirdi. 1990-cı illərdə təyinatlı vəzifələrdə, icra orqanlarında, məhkəmələrdə qadınların təmsilçiliyi əhəmiyyətli dərəcədə artdı. Bunun nəticələrini indi də görməkdəyik.

Ulu Öndərin qadınlara olan yüksək diqqətinin nəticəsidir ki, Onun qərarı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Qısa müddətdə bu komitə çox böyük nüfuz qazandı, uğurlara imza atdı. Prezidentin İlham Əliyevin müvafiq Fərmanı ilə 2006-cı ildə Dövlət Komitəsinin fəaliyyət sferası daha da genişləndirildi. Bu gün Komitə Azərbaycanın ictimai-siyasi həyatının ayrılmaz bir hissəsidir. Dövlət Komitəsi səlahiyyətləri çərçivəsində fəaliyyət göstərməklə yanaşı, ictimai-siyasi siferada olan qadınlardan ibarət şəbəkəyə malikdir. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin zamanında atdığı addımların nəticəsidir ki, bu gün ölkə qadınları cəmiyyət həyatında fəaldırlar.

Ümumiyyətlə, gender bərabərliyi sahəsində qanunvericilik bazası da güclüdür. Bu istiqamətdə beynəlxalq konvensiyalara qoşulmuşuq. Beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiləri sırasında çoxlu sayda qadınlar var. Millət vəkilləri olan qadınlarımız da bu prosesə böyük töhfələr verir. Onlar da daxil olmaqla bütün digər qadınlar uğurları Heydər Əliyev siyasəti ilə bağlıdır. Buna görə də, Azərbaycan qadınları Ulu Öndər Heydər Əliyevi minnətdarlıqla xatırlayırlar.

**- Bahar xanım, gender məsələsinə toxundunuz. Ölkəmizdə gender bərabərliyinin qorunması istiqamətində hansı addımlar atılır?**

- Azərbaycan tarixən malik olduğu mədəniyyətə, multikultural dəyərlərə görə gender bərabərliyi sahəsində heç zaman problem yaşamayıb. Bizdə həm ailənin, həm də dövlətin idarə olunmasına qadınlar geniş şəkildə cəlb olunublar. Qadınların müəyyən sahədə uğur qazanması üçün qanunvericilik sahəsində heç bir məhdudiyyət olmayıb. Sadəcə, qarşıya hədəflər qoyub bu hədəflərə çatmaq lazımdır. Amma bu ayrı məsələdir ki, qadınlar bunu nə qədər istəyir?

Ümumiyyətlə, bu sahədə qanunvericilik bazasının yaradılması və digər addımların atılması ilə əlaqədar təşəbbüslər də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Gender bərabərliyinin təşviq edilməsində də Onun rolu böyükdür. Xatirimdədir ki, Ümummilli Liderimiz bir çox tədbirlərdə çıxışları zamanı Azərbaycan qadınlarının keçdiyi tarixi yoldan həvəslə danışardı, qadınları yüksək vəzifələrə hazır olmağa çağırardı. Yəni qadınlarla bağlı bütün məsələlər Onun diqqətində idi. Bu, həm də örnək idi ki, ölkə rəhbəri gender məsələsinə necə diqqət yetirir, digər qurumlar bundan nümunə götürərək hansı addımları atmalıdırlar.

Bu gün Cənb Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə gender bərabərliyi məsələsi daha yüksək səviyyəyə çatıb. Mehriban xanım Əliyeva birinci xanım, Birinci vitse-prezident və YAP Sədrinin müavini kimi öz fəaliyyəti ilə Azərbaycan qadınlarına örnəkdir. Bu örnək imkan verir ki, qadınlarımız cəmiyyətimizin həyatında daha da fəal olsunlar.

Hesab edirəm ki, Azərbaycanda gender bərabərliyinin təmin olunması üçün həm hüquqi bazamız, həm real mexanizmlər, həm də dövlət institutları var. Eləcə də, ictimai fəal qadınları prosesə töhfə verməyə təşviq edən dövlət tərəfindən atılan addımlar kifayət qədərdir. Cənab Prezident bu məsələlərə xüsusi diqqət yetirir. Dövlət bu sahəyə kifayət qədər vəsait ayırır. Biz gender bərabərliyi ilə bağlı beynəlxalq layihələrin reallaşması istiqamətində müvafiq tədbirlər həyata keçiririk. O cümlədən, qadınların məşğulluğunun təmin olunması, qadın sahibkarlığının inkişaf etdirilməsi diqqət mərkəzindədir.

**- Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti bütün Azərbaycan qadınları üçün bir örnəkdir. Mehriban xanım Əliyevanın fəaliyyəti fonunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri kimi qadınlarımıza hansı çağırışları edərdiniz?**

- İlk növbədə, çağırış özünə inamla bağlı olmalıdır. İstənilən şəxs qarşısına hədəf qoyursa özünə güvənməlidir. Belə olmadığı təqdirdə uğur qazanmaq mümkün deyil. Üzümü qadınlara tutaraq dövlət və cəmiyyət həyatına daha geniş şəkildə iştirak etməyə, özlərinə inam formalaşdırmağa çağırıram. Onları dövlətin qadın siyasətinə istinad etməyə və bu siyasətə söykənərək dövlət həyatına, ictimai həyata töhfə verməyə dəvət edirəm. Çünki bu bizim iştirakımızla və bizim gələcəyimizi təmin etmək üçün qurulan dövlətdir. Bu dövlətin gələcək həyatı üçün biz məsuliyyəti bölüşməliyik.

Əlbəttə ki, ölkədə yaradılan maddi dəyərlər, iqtisadi dəyərlər, elmi potensial, Azərbaycanın malik olduğu bütün resursların hər bir insanın həyatına yönəlməsi işi həm də bizim işimizdir. Biz ailəmizə cavabdeh olduğumuz kimi, dövlətimizin nailiyyətlər qazanmasına cavabdehlik daşımalıyıq. Ona görə də, kişilərlə bərabər mövcud imkanlardan istifadə edərək bərabər nəticələr qazanmağa çağırıram.

Bu gün qadınları koronavirus pandemiyası ilə bağlı çətinlikləri dəf etmək üçün öhdəlikləri dərk etməyə çağırıram. İnanıram ki, bu çətinlikdən alnıaçıq çıxmağımıza qadınlarımız da öz töhfələrini verəcəklər.

## Azərbaycanda daha 75 nəfər koronavirusa yoluxdu



Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 75 yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 2279 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1576 nəfər müalicə olunaraq sağalıb, 28 nəfər vəfat edib, 675 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 39 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 181.530 test aparılıb.

## Bakı Metropoliteni bu gündən işə başlayır

Yeni növ koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar Azərbaycan Respublikası ərazisində tətbiq olunan xüsusi karantin rejiminin mərhələli yumşalma planına və mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq “Bakı Metropoliteni”nin fəaliyyətinin 9 may 2020-ci il saat 06.00-dan etibarən bərpa edilməsinə dair qərar verilib. Bu barədə SİA-ya Nazirlər Kabineti yanında Operativ Qərargaha istinadən xəbər verir.

“Bakı Metropoliteni” pandemiya dövründə fəaliyyətini Operativ Qərargahın tələb və qaydalarına, o cümlədən “İctimai nəqliyyatda koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstəriş”ə uyğun olaraq həyata keçirməlidir. Eyni zamanda metro stansiyalarına yalnız yaşayış yerini SMS icazə ilə, “icaze.e-gov.az” portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayışla tərk edən sərnişinlərin girişinə icazə verilməlidir. Sərnişinlərin metro stansiyası ərazisində, eləcə də qatarlarda qoruyucu maskalardan istifadəsi və sosial məsafəni gözləməsi mütləqdir.

# Ulu Öndər Heydər Əliyevin ümummilli məqsədlər naminə fəaliyyəti Onun zəngin həyat yolunun parlaq və unudulmaz səhifələrini təşkil edir



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

**- Mübariz müəllim, bildiyimiz kimi mayın 10-da müasir müstəqil Azərbaycanın memarı və qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olur. Böyük öndərimiz Heydər Əliyevin müstəqil Azərbaycanın və xalqımız qarşısındakı misilsiz xidmətləri haqqında fikirlərinizi bilmək istərdik...**

- Azərbaycanın dünyada və keçmiş sovetlər ittifaqında gedən proseslərin nəticəsində yenidən dövlət müstəqilliyini əldə etməsi xalqımızın həyatında mühüm tarixi hadisə oldu. Respublikamızda hakimiyyətdə olan qüvvələrin qarşısında milli birlik yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyətini formalaşdırmaq, bazar iqtisadiyyatını bərqərar etmək kimi mühüm vəzifələr dayanırdı. Xalqımızın dövlətçilik tarixinə, milli-mənəvi dəyərlərinə, demokratik siyasi sistemə keçid dövrünü yaşamış ölkələrin təcrübələrinə söykənən, mükəmməl elmi-nəzəri və praktiki əsasları olan dövlət siyasətinin aparılması vacib idi. Təəssüf ki, 1990-cı ilin əvvəllərində Azərbaycanda hakimiyyətdə olan qüvvələrin naşılığı və dövləti idarəetmə qabiliyyətlərinin olmaması nəticəsində respublikamız ağır sosial-iqtisadi və ictimai-siyasi böhranla üzləşdi. Xüsusilə, AXC-Müsavat hakimiyyətinin yarıtmaz kadr siyasəti aparması cəmiyyətdə hərc-mərcliyin baş alıb getməsinə gətirib çıxardı, Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaratdı. Ziddiyyətli xarakter daşıyan xarici siyasətin nəticəsində Azərbaycan beynəlxalq aləmdə təkləndi, dünya birliyində onun haqqında qeyri-ciddi dövlət obrazı formalaşdı. Ölkəmizin şimalında və cənubunda baş verən separatçı hərəkətlər dövlət müstəqilliyi üçün ciddi təhdidə çevrildi.

Xalqımız yaranmış ağır və mürəkkəb vəziyyətdən çıxış yolunu həmin dövrdə Naxçıvan Ali Məclisinin sədri olan görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdi. İqtidarda olan qüvvələr isə ictimaiyyətin Heydər Əliyevə olan inamını, dahi şəxsiyyətin yüksək nüfuzunu və zəngin idarəçilik təcrübəsini qısqanclıqla qarşılayırdı. Sosial-iqtisadi, siyasi böhranın gündən-günə gərginləşməsinə və yaranmış vəziyyətdən çıxış yolunun tapılmamasına görə əhalinin bütün təbəqələri iqtidarın apardığı siyasətə kəskin etiraz etməyə başladılar. Onlar Azərbaycan hakimiyyətinin səriştəsizliyi ucbatından cəmiyyətdə xaos və anarxiyanın hökm sürdüyünü, ictimai-siyasi proseslərin nəzarətdən çıxdığını, vətəndaş qarşıdurmasının dərinləşdiyini, hüquqi, demokratik dövlət quruculuğu üçün real addımların atılmadığını bildirdilər.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması milli birliyin təmin edilməsində mühüm tarixi hadisə oldu. Konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi partiyanın ideoloji prinsiplərindən biri kimi göstərildi. Qeyd edildi ki, cəmiyyətin yeniləşməsi üçün vətəndaş həmrəyliyinə və konsensusa nail olmaq, dövlətçiliyin möhkəmlənməsinə maneçilik törədən qarşıdurmanı rədd edərək şəxsi, qrup maraqlarını aradan qaldırmaq vacibdir. Buna görə də vətəndaş həmrəyliyi üçün Azərbaycanda fəaliyyət göstərən mütərəqqi və sağlam mövqeyi olan ictimai təşkilatlarla, siyasi partiyalarla fəal və konstruktiv əməkdaşlıq etməli, milli maraqların qorunması naminə bütün səviyyələrdə ümumi mənafeləri uyğunlaşdırmalı, başqa əqidədə olanlarla vicdanlı və açıq dialoq aparılmalıdır.

1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat hakimiyyəti həm xalqımızın israrlı tələbini, həm də özünün acınacaqlı aqibətini nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev həmin gün parlamentin iclasındakı çıxışında qarşısında dayanan vəzifələri - dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin azad edilməsi, cəmiyyətdə demokratik prinsiplərin və qanunçuluğun təmin olunması, bazar iqtisadiyyatının formalaşdırılmasını və s. göstərməklə yanaşı, həm də vətəndaş həmrəyliyinin zəruriliyini bildirdi. Heydər Əliyevin parlamentin Sədri, sonralar isə Azərbaycan Respublikasının Prezidenti kimi ümummilli vəzifələri yerinə yetirməsində daim vətəndaş həmrəyliyinə arxalanması mühüm rol oynamışdır ki, bu da müstəqil dövlət quruculuğu proseslərinin uğurla getməsini, cəmiyyətdə demokratik dəyərlərin özünə mühüm yer tutmasını, bazar iqtisadiyyatının inkişafını şərtləndirmişdir.

Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra dövlətin bütün sahələrində olduğu kimi, milli həmrəyliyin təmin edilməsi istiqamətində də yeni tarixi mərhələ başladı, vətəndaş sülhü dəyərli mənəvi-ideoloji sərvətlərdən biri oldu. Ümummilli Liderin apardığı siyasət ətrafında yaranmış milli həmrəylik öz təsdiqini Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş təhdidlərin, ağır siyasi və iqtisadi böhranın aradan qaldırılmasında tapdı. 1990-cı ilin əvvəllərində respublikamızda vətəndaş müharibəsinin, ölkəmizin ərazi bütövlüyünün pozulmasına istiqamətlənmiş etnik-separatçı hərəkətlərin, dövlət çevrilişinə cəhdlərin və s. qarşısının alınmasında Heydər Əliyevin apardığı siyasətlə xalqımızın milli birliyinin vəhdəti mühüm rol oynamışdır. Dahi Öndər həmin dövrdə vəziyyəti xarakterizə edərək bildirirdi: "İndi respublikanın böhran vəziyyətində - iqtisadi böhran, ictimai-siyasi böhran, eyni zamanda ağır müharibə vəziyyətində hamımız birgə çalışmalı, birgə fəaliyyət göstərməli, həmrəylik - vətəndaş həmrəyliyi, milli həmrəylik nümayiş etdirməliyik. Mən bu həmrəyliyin yaranması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Heydər Əliyev böyük qətiyyəti və siyasi bacarığı ilə dövlət çevrilişləri cəhdlərinin, etnik-separatçı hərəkətlərin, xaricdəki anti-Azərbaycan dairələrin təxribatlarının qarşısını alarkən hamıya məlum oldu ki, ölkəmizin müstəqilliyini təhdid edənlər dövlət-xalq birliyinin zərbəsi ilə üzləşəcəkdir. Bununla bağlı həmin dövrdə Ümummilli Lider demişdir: "İndi Azərbaycan Respublikası üçün, Azərbaycanın dövlətçiliyi üçün milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq. Ona görə də aramızda olan, ayrı-ayrı şəxsi mənafe güdən qüvvələrə xəbərdarlıq edirəm: bütün bu işlərindən əl çəksinlər, bunların heç bir nəticəsi olmayacaq, onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki xalq artıq ayılmışdır, ayağa qalxmışdır. Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz. Mən də xalqın gücünə arxalanıram".

**- Müstəqilliyimizin ilk illərində yaranmış çətinliklərin qarşısının alınmasında Ulu Öndər Heydər Əliyevin liderliyi ilə milli həmrəylik amili nə dərəcədə rol oynadı?**

- Heydər Əliyevin apardığı müdrik siyasət ölkəmizin üzləşdiyi çətinliklərdən xilas olması yolunda milli həmrəylik simvoluna çevrildi. Dahi şəxsiyyət ictimai rəydə belə bir fikir formalaşdırdı ki, keçmiş hakimiyyətlərdən miras qalmış problemlər xalqımızı ruhdan salmamalı, bu problemləri Vətənini sevən hər kəs həmrəylik göstərərək birgə şəkildə aradan qaldırmağa çalışmalıdır. Heydər Əliyev xalqımızın çoxəsrlik milimənəvi dəyərlərinin gələcək nəsillərə çatdırılmasında da vətəndaş həmrəyliyinin vacib olduğunu bildirirdi.

Heydər Əliyev böyük siyasi iradə və əzmkarlıqla üzərinə düşən vəzifələri yerinə yetirərək siyasiləşmiş hərbi qrupların zorakı, qanunazidd əməllərinin qarşısını aldı və onlar ədalət mühakiməsinə verildi. Ölkəmizdə bərqərar olan ictimai-siyasi sabitlik Heydər Əliyevin xalqımıza bəxş etdiyi böyük ərməğan oldu və bu amil cəmiyyətin bütün sahələrini əhatə edən inkişaf strategiyasının həyata keçirilməsinə şərait yaratdı. Heydər Əliyev bununla bağlı qeyd edirdi: "Əgər biz 1993-cü ildə vətəndaş müharibəsindən xilas olduqsa, 1994-cü ildə respublikamızı bir neçə dəfə dövlət çevrilişi cəhdlərindən xilas etdiksə, 1995-ci ildə bir neçə dövlət çevrilişinin qarşısını aldıqsa və cinayətkar qrupları aradan götürdüksə, respublikamızı bu cinayətkar qruplardan müəyyən qədər təmizlədiksə, xalqımızda ümumi həmrəylik, milli həmrəylik hissləri yarada bildiksə, gələcəyə böyük ümidlər bəsləməyə bizim haqqımız, əsasımız var. Məni sevindirən hal odur ki, artıq insanlar rahat yaşayırlar, bir-biri ilə mehribandırlar. Keçmiş illərdə olan o ədavət, qorxu, düşmənçilik hissiyyatları aradan götürülübdür. Əgər biz bunların hamısına nail olmamışıqsa da, ancaq çox irəliyə getmişik, çox şeylərə nail olmuşuq. Ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul olunması və demokratik prinsiplər əsasında Azərbaycan Respublikasının ilk parlamentinin seçilməsi respublikamızın həyatında, xalqımızda milli həmrəyliyin, vətəndaş həmrəyliyinin, milli birliyin artıq mövcud olduğunu göstərir". Ölkəmizdə ictimai-siyasi sabitlik yaradıldıqdan sonra silahlı yolla hakimiyyəti zəbt etməyə çalışanlar dağıdıcı niyyətlərini həyata keçirə bilmədilər, onlar əvvəlki dövrlərdən fərqli olaraq qarşılarında qanunlara əsaslanan dövlət hakimiyyətini gördülər. Bütün bunlar xalqımızda Azərbaycanın dövlət müstəqilliyinin sarsılmaz olduğuna böyük inam yaratdı.

Heydər Əliyev vətəndaş cəmiyyətinin inkişafı, ölkəmizin intellektual potensialının müstəqil dövlət quruculuğu proseslərinə cəlb olunması, sosial ədalət prinsipinə əməl edilməsi və insanlarda hakimiyyətə inamın möhkəmlənməsində milli birliyin əhəmiyyətini yüksək qiymətləndirmiş və bu yanaşma Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında öz əksini tapmışdır. Ali Qanunda ölkəmizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və qarşılıqlı fəaliyyət göstərmək kimi məqsədlərin bəyan edilməsi vətəndaş həmrəyliyinin bərqərar olması üçün hüquqi-siyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Heydər Əliyevin müdrik siyasətinin nəticəsində qısa müddət ərzində hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının inkişafı və ordu quruculuğu yolunda mühüm addımların atılmasına başlanıldı. Geniş miqyaslı islahatların aparılması, elm, təhsil, mədəniyyət və ədəbiyyatın inkişafı sahəsində görülən işlər ölkə vətəndaşlarında dövlətçilik təfəkkürünün formalaşmasına mühüm təsir göstərdi.

Ümummilli Lider apardığı geniş miqyaslı islahatlarla ümumbəşəri təcrübənin və mütərəqqi dəyərlərin real həyatda öz təsdiqini tapmasına çalışmışdır. Heydər Əliyevin mövqeyinə görə, islahatların həyata keçirilməsinin vacibliyini bildirməklə onları tələm-tələsik şəkildə aparmaq yolverilməzdir. Ümumdünya tarixindən məlumdur ki, bir iqtisadi-siyasi sistemdən digərinə keçid mürəkkəb prosesdir və xeyli ziddiyyətlərlə müşahidə edilir. Problemlərin həllini nəzərdə tutan strateji fəaliyyət istiqamətləri müəyyən olunmadığı halda cəmiyyətdə sosial narazılıq yaranır ki, bu da islahatların uğursuzluğuna gətirib çıxarır. Buna görə də Heydər Əliyev islahatların radikal yolla deyil, cəmiyyətin və ictimai şüurun inkişaf qanunauyğunluqlarını nəzərə alaraq tədricən aparılmasına üstünlük vermişdir. Ümummilli Lider demokratik siyasi sistemin təşəkkül tapması, formalaşması və inkişafında vətəndaş həmrəylinin rolunu yüksək qiymətləndirirdi. Onun apardığı siyasətin hüquqi dövlətlə demokratik siyasi sistem arasındakı bağlılığı təmin etməsi müstəqil dövlət quruculuğu prosesinin demokratik normalar əsasında getməsini şərtləndirmişdir. Bu sahədə həyata keçirilmiş siyasətin məqsədləri sırasında hakimiyyət institutlarının normal fəaliyyətini təmin etmək və çoxpartiyalı siyasi sistem formalaşdırmaq mühüm yer tutur.

Ümummilli Liderin xalqımız qarşısında ən mühüm tarixi xidmətlərindən biri vətəndaş sülhünü və həmrəyliyini təmin edən, azərbaycançılıq məfkurəsinə əsaslanan milli ideologiyanı formalaşdırıb inkişaf etdirmək olmuşdur. Heydər Əliyev hələ sovet dövründə respublikamıza rəhbərlik edərkən azərbaycançılıq ideyasının ictimai fikirdə özünə mühüm yer tutması üçün ciddi addımlar atmışdır. Onun təşəbbüsü ilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, Azərbaycan SSR-nin 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması barədə maddənin öz əksini tapması və s. milli mənlik şüurunun inkişafında mühüm rol oynamışdır. Eyni zamanda, 1970-80-ci illərdə azərbaycançılığın inkişafı üçün respublikada lazımi ictimai mühitin yaradılmasından xalqımızın görkəmli şair və yazıçıları, tarixçiləri, dilçiləri bəhrələnərək çoxsaylı əsərlər yaratmışlar ki, bu da milli həmrəylik və özünüdərk prosesinə böyük təsir göstərmişdir. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən milli birliyin və vətəndaş həmrəyliyinin cəmiyyətdə özünə dərin kök salması üçün müdrik addımlar atmışdır. Onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul etməsi azərbaycançılıq məfkurəsinin təbliği və ümumxalq birliyinin təmin edilməsi baxımından böyük tarixi əhəmiyyət daşıyır.

**- Siz Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasına toxundunuz. Bu ideologiyanın cəmiyyətin bütövləşməsini, ümumxalq birliyini təmin edən faktor kimi rolunu necə xarakterizə etmək olar?**

- Ulu Öndər Heydər Əliyev Azərbaycan vətəndaşlarını vahid amal və məqsəd ətrafında birləşdirən azərbaycançılıq ideyasını milli ideologiya səviyyəsinə qaldırdı. Bu ideologiya cəmiyyətin bütövləşməsini, vətəndaş həmrəyliyini və ümumxalq birliyini təmin edən mühüm faktor oldu. Dahi Öndər azərbaycançılıq ideyasına əsaslanmaqla müxtəlif ictimai-siyasi qüvvələr, dini-etnik konfessiyalar, mədəniyyətlər arasında konstruktiv əməkdaşlığın və həmrəyliyin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət aparmağa başladı. Azərbaycançılığın ictimai fikirdə aparıcı yer tutmasının və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilməsinin əsas səbəbi onun xalqımızın tarixi keçmişi, bu günü və gələcəyi ilə sıx şəkildə bağlı olmasından irəli gəlir. Bu baxımdan milli birlik və vətəndaş həmrəyliyi həm də zəngin mənəvi-əxlaqi dəyərlərin, mədəniyyətin qorunub saxlanmasında və inkişafında mühüm önəm daşıyır. Milli maraqlarla azərbaycançılıq arasındakı vəhdət dövlət müstəqilliyinin möhkəmlənməsində və ölkəmizin mütərəqqi inkişafında özünəməxsus yer tutur, birgəyaşayışın vacibliyini əks etdirən baxışlar formalaşdırır.

Ardı Səh. 12

Əvvəli-Səh-11

# Ulu Öndər Heydər Əliyevin ümummilli məqsədlər naminə fəaliyyəti Onun zəngin həyat yolunun parlaq və unudulmaz səhifələrini təşkil edir

Azərbaycançılıq ideyası ölkəmizdəki dini-etnik qrupların maraqlarına cavab verən, onların qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən milli həmrəylik mənbəyidir. Heydər Əliyev milli və dini münasibətləri demokratik prinsiplər çərçivəsində, konstitusion normalar əsasında tənzimləyərək, vicdan azadlığının təmin olunması istiqamətində ardıcıl siyasət həyata keçirmişdir. Ümummilli Liderin fəaliyyətində belə bir prinsip özünə mühüm yer tutmuşdur ki, azərbaycançılıq məfkurəsi ölkəmizdəki xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında, onların mənəvi dəyərlərinin qorunmasında, Azərbaycan dövlətinin ətrafında səfərbər olmasında böyük tarixi-siyasi əhəmiyyət daşıyır. Heydər Əliyev mütərəqqi İslam dəyərlərinin cəmiyyətdə özünə yer tutması ilə yanaşı, həm də digər dini-etnik qruplara məxsus olan mədəni müxtəlifliyin təmin olunması üçün tolerant mühitin yaradılmasını təmin etmişdir.

Heydər Əliyev milli münasibətlərə etnik millətçilik nöqteyi-nəzərindən yanaşmanı qəbul etməyərək, dövlət-millət anlayışına keçidin bünövrəsini qoydu. Milli münasibətlərin ölkəmizin tarixi, siyasi və mədəni reallıqlarından çıxış edilərək tənzimlənməsi milli-etnik mənsubiyyətindən asılı olmayaraq ölkə vətəndaşlarının müstəqil dövlət quruculuğu proseslərində fəal iştirakına böyük stimul verdi. Bütün xalqların və millətlərin, dini konfessiyaların nümayəndələri dostluq və humanizm prinsipinə əsaslanaraq vətəndaş həmrəyliyinin möhkəmlənməsində yaxından iştirak etməyə başladılar. Onlar daxili və xarici siyasi dairələrin Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş cinayətkar əməllərinə qarşı həmrəy və mütəşəkkil şəkildə kəskin etirazlarını bildirdilər.

Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli-mənəvi dəyərlərə sadiq olan, təşəbbüskarlığı ilə ictimai həyatda fəal rol oynayan, ölkəmizdə və dünyada baş verən prosesləri obyektiv şəkildə qiymətləndirməyi bacaran, Vətənini və xalqını sevən insanlar kimi görmək istəyirdi. Buna görə də onların hərtərəfli inkişafı üçün cəmiyyətdə sosial rifah halının yüksəldilməsini, demokratik dəyərlərin özünə mühüm yer tutmasını dövlətin əsas vəzifələrindən hesab edirdi. Bu istiqamətdə siyasət aparılarkən nəzərə alınırdı ki, demokratik dövlətin siyasi və iqtisadi baxımdan inkişaf etməsi qanunçuluğun və ictimai-siyasi sabitliyin təmin olunmasına təsir göstərməklə yanaşı, həm də vətəndaş birliyinin və milli həmrəyliyin möhkəmlənməsində xüsusi yer tutur.

Heydər Əliyevin Azərbaycan tarixində ilk dəfə olaraq xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda böyük addım ataraq Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsini yaratması milli həmrəyliyin möhkəmlənməsində böyük əhəmiyyət daşıyır. Soydaşlarımız bu hadisənin mühüm olduğunu bildirərək dövlətimizin onlara dayaq olmasını qürur hissi ilə qarşıladılar. Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşlərində milli birliyin vacibliyini onların nəzərinə çatdırmış, bu məsələ ilə bağlı diaspor təşkilatlarının üzərinə ciddi vəzifələr düşdüyünü qeyd etmişdir. 2001-ci ildə Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi xalqımızın milli ideologiya ətrafında sıx birləşməsində yeni mərhələnin əsasını qoymuşdur. Qeyd edək ki, vətəndaş həmrəyliyi xarici ölkələrdəki soydaşlarımızın mili-mədəni hüquqlarının, beynəlxalq konvensiyalardan irəli gələn haqlarının qorunmasında, yaşadıqları dövlətlərin siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak etmələrində xüsusi yer tutur.

Heydər Əliyev xalqımızın yüksək ideallar ətrafında birləşməsində, dövlətimizin inkişafı naminə dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin oynadığı rolu daim yüksək qiymətləndirmişdir. Heydər Əliyev bildirirdi ki, Azərbaycanın milli ideologiyasının konsepsiyası xalqımızın tarixi keçmişini, milli adət-ənənələrini, dilini, dinini və mədəniyyətini özündə əks etdirməlidir. Ulu Öndərin “Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” sözləri vətəndaş həmrəyliyi üçün milli mənsubiyyətin və tarixi köklərə bağlılığın əhəmiyyətini göstərir. Heydər Əliyevin siyasətində öz dövlətini sevən, onu qorumağı və bütün dünyada layiqincə tanıtmağı, təmsil etməyi bacaran gənc nəslin formalaşdırılmasına böyük önəm verilir. Buna görə də Ümummilli Lider çıxışlarında gənc nəslin milli adət-ənənələrə və mədəniyyətə sadiq olmasının, onları sevməsinin, bununla yanaşı dünya mədəniyyətini bilməsinin vacibliyini qeyd edirdi.

**- Ulu Öndər Heydər Əliyev mütərəqqi ideyaları ilə cəmiyyətdə mənəvi birliyin inkişafına səbəb olmuşdur...**

- Heydər Əliyev dünyada gedən geosiyasi proseslərə obyektiv şəkildə yanaşaraq, xalqımızın dünya sivilizasiyasında özünütəsdiqi məsələsini həmişə diqqət mərkəzində saxlamışdır. Xüsusilə, qloballaşmanın dövlətlərin inkişafına, ərazi bütövlüyü və idarəetmə sistemlərinə, iqtisadi-siyasi inteqrasiyaya və s. göstərdiyi təsiri nəzərə almışdır. Ümummilli Liderin siyasəti milli mənlik şüurunun inkişafına mühüm təkan vermişdir. Dövlətçilik, vətənçilik kimi prinsiplərin real həyatda öz təsdiqini tapmasına nail olmaq Heydər Əliyevin siyasətinin əsas xüsusiyyətlərindən biridir. Tarixi-mənəvi dəyərlərdən qaynaqlanan bu siyasət Vətən, millət və milli dövlət anlayışlarını vəhdətdə götürür.

Ümummilli Liderin ictimai-siyasi proseslərdə aparıcı mövqe tutmaq, həmrəylik yaratmaq kimi bacarıqları cəmiyyətdə ona böyük nüfuz qazandırmışdır. Respublikamızda keçirilmiş parlament və prezident seçkilərində Heydər Əliyevin əldə etdiyi qələbələr seçicilərin ona olan böyük inam və rəğbəti ilə bağlı olmuşdur. Xalqımız Heydər Əliyevi ona görə dəstəkləmişdir ki, Ümummilli Liderin ideya və baxışları ictimai tələblərə tam şəkildə cavab vermişdir. Bütün bunlar göstərir ki, siyasi liderin cəmiyyətdə böyük nüfuza malik olması üçün onun ümummilli mənafeləri üstün tutması, xalqı düşündürən məsələlərə böyük həssaslıqla yanaşması vacib şərtdir. Heydər Əliyevin seçki platformalarında milli maraqların mükəmməl şəkildə öz ifadəsini tapması xalqımız tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkəmizdə və dünyada gedən proseslərə obyektiv mövqedən yanaşması, ictimai şüurda baş verən dəyişiklikləri daim diqqət mərkəzində saxlaması nəticəsində Heydər Əliyev qarşısına qoyduğu məqsədlərə nail olmuşdur.

Heydər Əliyev mütərəqqi ideyaları ilə cəmiyyətdə mənəvi birliyin inkişafına səbəb olmuşdur. Onun siyasətinin realist xarakter daşıması, xalqımızın mənəvi-intellektual potensialından çıxış etməsi, özündə daşıdığı prinsiplər milli inkişaf üçün siyasi-ideoloji bünövrə olmuşdur. Dahi şəxsiyyətin fəaliyyətini səciyyələndirən xüsusiyyətlərdən biri insanları ümummilli maraqlar ətrafında səfərbər etmək üçün ictimai rəyə güclü təsir göstərmək qabiliyyətinin olmasıdır.

Heydər Əliyev vətəndaş həmrəyliyi şəraitində əhalinin bütün təbəqələri ilə tez-tez görüşlər keçirmiş, ölkəmizin inkişafı ilə bağlı görülmüş işləri və qarşıda dayanan vəzifələri onların nəzərinə çatdırmış, irəli sürülən təkliflərə böyük diqqətlə yanaşmışdır. Bununla bağlı Heydər Əliyev demişdir: “Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir. Əks təqdirdə onların heç biri həyata keçirilə bilməzdi. Əgər bu dəstək olmasaydı, əgər həmrəylik olmasaydı, bizim təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bunların heç birini edə bilməzdik. Azərbaycanın müasir tarixi, bizimlə eyni taleyi yaşayan digər ölkələrin tarixi onu göstərir ki, harada iqtidar tərəfindən irəli sürülmüş təşəbbüslər xalq tərəfindən dəstəklənirsə, orada həm həmrəylik var, həm sabitlik, həm də inkişaf var”.

Heydər Əliyevin ümummilli məqsədlər naminə geniş xalq kütlələrini öz arxasınca aparmağı bacarması onun zəngin həyat yolunun parlaq və unudulmaz səhifələrini təşkil edir. Ümummilli Lider xalqımızın taleyində böyük dəyişikliklər yaradan tarixi missiyanı yerinə yetirməsi, mürəkkəb vəziyyətlərdə doğru qərarlar qəbul etmək bacarığı, başqalarının fikirlərinə hörmətlə yanaşması və yüksək işgüzarlığı ilə insanların dərin rəğbətini qazanmışdır. Heydər Əliyev cəmiyyətin inkişafına stimul verən mütərəqqi ideyaların reallaşmasında milli həmrəyliyin mühüm rol oynadığını bildirmiş, dövlətin və xalqın əleyhinə yönəlmiş istənilən fəaliyyətə qarşı barışmaz mövqe tutmuşdur.

**- Ümummilli Lideimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi siyasətin uğurları barədə nə deyə bilərsiniz?**

- Milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması ilə bağlı Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmiz dünyada fərqli dini sivilizasiyaların qovuşduğu tolerant məkan, milli birlik şəraitində yaşayan dövlət kimi tanınır. Bunun nəticəsidir ki, transmilli enerji-nəqliyyat layihələrinin birgə həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərə dünyanın müxtəlif dövlətləri fəal şəkildə qoşulur.

Doğma Vətənini sevən hər bir azərbaycanlı Prezident İlham Əliyevin xalqımızın maraqlarına söykənən siyasətini dəstəkləyir və ona həmrəy olduğunu bildirir. Ölkəmizin müstəqilliyi və suverenliyinin möhkəmlənməsi, insanların ləyaqətli həyat şəraitində yaşamasının təmin edilməsi sahəsində Azərbaycan Prezidentinin göstərdiyi fəaliyyətlə vətəndaş həmrəyliyi arasında sıx əlaqə vardır. Milliyyətindən asılı olmayaraq hər kəsin hüquqlarının qorunması, müxtəlif xalqların mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirən faktorlar kimi çıxış edir. Bununla bağlı Prezident İlham Əliyev demişdir: “Cəmiyyətimizdə milli birlik, sosial həmrəylik güclənir. Vətəndaşlarımızın nikbin əhval-ruhiyyəsi, sabaha inam hissi artır. Əhalinin ən müxtəlif təbəqələri, sosial qrupları arasında əməkdaşlıq və həmrəylik möhkəmlənir”.

Prezident İlham Əliyevin apardığı siyasətlə xalımızın həmrəy olması real həyatda dəfələrlə öz təsdiqini tapmışdır. 2016-cı ilin Aprel döyüşləri zamanı hər birimiz bunun bir daha şahidi olduq. Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda milli ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını aldı və bu hadisə xalqımızın tarixinə Aprel döyüşləri kimi daxil oldu. Həmin döyüşlər milli ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi, ölkəmizin hektarlarla ərazisi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistanın işğalından azad olundu, əldə edilmiş qələbə xalq-dövlət birliyini daha da möhkəmləndirdi.

Vətəndaş həmrəyliyinin bariz təzahürü koronavirus pandemiyasına qarşı mübarizədə Prezident İlham Əliyevin apardığı siyasətin xalqımız tərəfindən fəal şəkildə dəstəklənməsində bir daha özünü göstərdi. Azərbaycan Prezidentinin bu sahədə atdığı addımlar qlobal yanaşma ilə milli dəyərlərin vəhdətinə, yüksək vətənpərvərlik missiyasına söykənərək, qarşıya qoyulmuş məqsədlərə nail olunmasında böyük əhəmiyyət daşıyır. Dövlət siyasətinə dəstəyin əsasında onun ümummilli mənafeyi, ictimai tələbləri, insanları narahat edən və düşündürən məsələləri özündə dolğun şəkildə əks etdirməsi dayanır. Koronavirusla bağlı ölkəmizin həssas dövr yaşadığı bir vaxtda hakimiyyətlə xalq birliyinin mövcud olması yoluxucu xəstəliyə qarşı mübarizədə xüsusi əhəmiyyət daşıyır ki, bunun da ciddi əsası vardır. Çünki Prezident İlham Əliyevin apardığı siyasətin əsas prinsiplərindən birini vətəndaş həmrəyliyinin təmin olunması təşkil edir. Azərbaycan Prezidentinin öz çıxışlarında problemin ciddiliyini əhalinin nəzərinə çatdıraraq, “Biz birlikdə güclüyük!” fikrini irəli sürməsi milli birliyin, xalq-dövlət vəhdətinin parlaq ifadəsidir.

Prezident İlham Əliyevin liderliyini səciyyələndirən qətiyyətli siyasi iradə və məqsədyönlülük, hər bir fərdin, sosial qrupun və bütövlükdə cəmiyyətin maraqlarının nəzərə alınması kimi keyfiyyətlər onun apardığı siyasət ətrafında milli birliyi möhkəmləndirir. Dövlətin bütün sahələrində uğurların əldə edilməsində Azərbaycan Prezidentinin yüksək idarəçilik qabiliyyəti və mükəmməl iş təcrübəsi, vətəndaş həmrəyliyinə sadiqliyi mühüm rol oynayır. Siyasi barışığın, vətəndaş sülhünün təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin formalaşdırılması sahəsində Prezident İlham Əliyevin atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını yaradır. Azərbaycan Prezidenti dövlətin idarə olunmasında cəmiyyətin ictimai-siyasi həyatında vətəndaşların yaxından iştirakının təmin edilməsi, konstruktiv, sağlam mövqe tutan ictimai-siyasi qüvvələrlə dialoqun aparılması kimi məsələlərə böyük əhəmiyyət verir.

Qeyd edək ki, Ümummilli Liderin adını daşıyan Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə vətəndaş həmrəyliyinin və milli birliyin möhkəmlənməsinə öz töhfəsini verməkdədir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elm və təhsil, səhiyyə, mədəniyyət, sosial məsələlər, idman, ətraf mühitin qorunması, informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində həyata keçirilən layihələri xalqımız böyük rəğbət hissi ilə qarşılayır. Nəinki Azərbaycanın, eləcə də xarici dövlətlərin vətəndaşları Fondun ölkəmizdə və beynəlxalq miqyasda göstərdiyi xeyriyyəçilik və humanitar fəaliyyəti yüksək qiymətləndirirlər. Vətəndaş cəmiyyətinin inkişafı, mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin ictimai həyatda özünə mühüm yer tutması istiqamətində gördüyü işlər Fondun Heydər Əliyevin adını daşımağa layiq olduğunu bariz şəkildə sübut edir.

Yuxarıda göstərilənlərdən aydın olur ki, vətəndaş sülhünün və həmrəyliyinin möhkəmləndirilməsi Ümummilli Lider Heydər Əliyevin apardığı siyasətin əsas məqsədlərindən biri olmuş, bu sahədə görülmüş işlər ölkəmizin mütərəqqi yolla inkişafında mühüm rol oynamışdır. Görkəmli dövlət xadiminin əldə etdiyi tarixi nailiyyətlər Azərbaycanın gələcək inkişafının təməlində dayanmışdır. Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində milli həmrəylik ictimai həyatın ayrılmaz tərkib hissəsi olmuşdur. Dövlət-xalq birliyi ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni sahələrində mühüm uğurların əldə edilməsinin əsasında dayanır. Prezident İlham Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri həm də onun vətəndaş həmrəyliyi və milli birliyin möhkəmləndirilməsi istiqamətində apardığı mütərəqqi siyasətdə təcəssüm edir.

# Hikmət Hacıyev: “İnanmırıq ki, Ermənistan hakimiyyətinin buna cəsarəti çatsın”



***Özünü demokratik adlandıran Ermənistanın indiki hakimiyyəti, ilk növbədə, faşist cəlladlarına ucaldılmış heykəlləri sökməlidir.***

Bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan Xarici İşlər Nazirliyinin açıqlaması ilə əlaqədar şərhində bildirib.

Hikmət Hacıyev deyib: “Birinci dəfə deyil ki, MDB dövlətlərinin II Dünya müharibəsi veteranları icması faşist cəlladı Qaregin Njdeyə abidə ucaldılması məsələsini qaldırıb. Bir neçə il əvvəl Azərbaycan veteranları MDB ölkələrindən olan veteranlara faşist generalı Qaregin Njdenin şərəfinə Yerevanda abidə qoyulması ilə bağlı məktub ünvanlamışdı.

Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 11-də Aşqabadda MDB-nin Zirvə görüşündəki məlum çıxışı MDB dövlət başçılarının diqqətini bu məsələyə cəlb etmək məqsədi daşıyırdı. Sevindirici haldır ki, Rusiyanın Armavir şəhərində erməni kilsəsi tərəfindən zəbt edilmiş ərazidə Qaregin Njdeyə qoyulmuş memorial lövhənin götürülməsi ilə əlaqədar qərar qəbul edilmişdir.

Njdenin faşist cəlladı olduğunu sübut edən kifayət qədər sənədlər var. Sovet İttifaqı tərəfindən 25 il müddətinə həbs edilmiş Qaregin Njdeyə bəraət verilməmişdir. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim etmişdir. Həmin məruzədə deyilir: “Ermənistanın keçmiş hakim Respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”.

Qaregin Njdenin formalaşdırdığı irqçi təmayüllü şovinist təlimi Ermənistanın sabiq hakim Respublikaçılar partiyasının ideoloji əsasını təşkil edir. Faşizmdən və irqçi “Ari” ideologiyasından qaynaqlanan bu təlim “Tseğakron” (millətçi, dini və bütpərəst mistizminin irqçi birləşməsi) və ya “Njdeizm” adlanır. “Njdeizm” adı altında bu irqçi ideologiya Ermənistanda orta və ali məktəb proqramına daxil edilib və gənc nəsil hələ də bu ruhda tərbiyə edilir.

Digər faşist cəlladı və “Dro” ləqəbi ilə tanınan Drastamat Kanayanın rəhbərliyi altında erməni legionu faşist ordusunun tərkibində Krımda və Qafqazda əməliyyatlarda iştirak etmişdir. Drastamat Kanayanın da şərəfinə Ermənistanda abidələr ucaldılmışdır. Ermənistan Müdafiə Nazirliyinin Milli Strateji Araşdırmalar İnstitutu faşist cəlladı Kanayanın adını daşıyır. Həmçinin Ermənistan Müdafiə Nazirliyi Kanayanın şərəfinə medal buraxmışdır.

Özünü demokratik adlandıran Ermənistanın indiki hakimiyyəti Qaregin Njdeyə və ya Drastamat Kanayana ucaldılmış abidələri sökmür. İnanmırıq ki, Ermənistan hakimiyyətinin buna cəsarəti çatsın. Sovet dövründə və müstəqillik illərində Ermənistan hakimiyyətinin yalnız Azərbaycan xalqına məxsus tarixi torpaqlarda, indiki Ermənistan ərazisində Azərbaycan xalqına aid tarixi abidələri dağıtmağa cəsarəti çatmışdır.

Orta əsr Azərbaycan şəhərlərindən olan İrəvandakı (hazırda Yerevan) Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə “yenidən təmir edilib”. Dağıdılmış memarlıq abidələri arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi və “Sərdar sarayı” və ya “Xan sarayı” saraylar kompleksi də vardır. İrəvanın Sərdar məscidi də sistemli dağıntıya məruz qalmış və 2014-cü ildə tamamilə dağıdılmışdır. Ermənistan ictimaiyyəti niyə sual vermir ki, Yerevanda bir dənə də olsun tarixi abidə yoxdur. Çünki bu abidələr məhv edilmişdir və bütün bunlar danılmaz faktlardır.

Həmçinin Ermənistanda olan, Azərbaycan xalqına məxsus qədim və yeni dövr qəbiristanlıqlar məhv edilib. Aşıq Ələsgərin tarixi Azərbaycan torpağı olan Göyçə mahalındakı qəbri də onların sırasındadır. Ermənistan ərazisində olan tarixi Azərbaycan toponimlərinin adları dəyişdirilib və erməni adları ilə əvəz edilib. Ermənistandakı şəhərlərin və yaşayış məskənlərinin tarixi adları qaytarılmalıdır.

Ermənistan tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ətraf yeddi rayonu, Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun yeddi kəndi və Naxçıvanın Kərki kəndinin müvəqqəti işğalı nəticəsində 738 tarixi abidə, 83 min 500-dən çox eksponata malik 28 muzey, 4 şəkil qalereyası, 14 xatirə kompleksi və 1107 mədəniyyət müəssisəsi daxil olmaqla, 1891 maddi-mədəniyyət abidəsi və məscidlər talan edilib və vandalizmə məruz qalıb.

1992-ci il mayın 8-də Azərbaycanın mədəniyyət mərkəzlərindən olan Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Hərbi əməliyyatların dərhal ardınca Şuşa şəhərində mədrəsələri ilə birgə Yuxarı və Aşağı Gövhərağa məscidi, Vaqif Mavzoleyi, Natavanın evi, karvansaray kimi arxeoloji abidələr dağıdılıb, yandırılıb və talan edilib.

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bütün əraziləri işğaldan azad ediləcək, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini təmin edəcək və tarixi ədalət bərpa olunacaq.

Prezident İlham Əliyevin MDB dövlət başçılarının Zirvə görüşündə qeyd etdiyi kimi, özünü demokratik seçilmiş təqdim edən yeni Ermənistan hakimiyyəti, ilk növbədə, özünü bu ləkədən, bu rüsvayçılıqdan təmizləməli və faşist cəlladlarına ucaldılmış heykəlləri sökməlidir”.

# Alman faşizmi üzərində tarixi Qələbədən 75 il ötür




***Bu gün alman faşizmi üzərində tarixi Qələbədən 75 il ötür. 1939-cu il sentyabrın 1-də faşist Almaniyasının Polşanı işğal etməsi ilə İkinci Dünya müharibəsi başlayıb. 1941-ci il iyunun 22-də isə Hitler Almaniyası SSRİ-yə hücum edib. Müharibə 1945-ci il mayın 9-da - Berlindəki Reyxstaq binası üzərindən faşizm bayrağının endirilməsi ilə başa çatıb.***

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatını təmin edib. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz Ulu Öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 May - Qələbə Günü qeyd olunur. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qeyd edək ki, bu il mayın 7-də Prezident İlham Əliyev Azərbaycan Respublikasında müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, ölkəmizdə müharibə veteranlarına dövlət qayğısını artırmaq məqsədilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün Prezidentin ehtiyat fondundan bu quruma 300 yüz min manat ayrılıb.

# Bu uşaqlara yaşayış sahələri veriləcək

***Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara yaşayış sahələri veriləcək. SİA-nın xəbərinə görə, bununla bağlı məsələ Milli Məclisin dünən keçirilən plenar iclasında müzakirəyə çıxarılan “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” qanuna dəyişiklikdə öz əksini tapıb.***



Dəyişikliyə əsasən, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri veriləcək. Müzakirələrdən sonra layihə səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

# Ulu Öndər Heydər Əliyev - ƏN BÖYÜK AZƏRBAYCANLI

***İllər keçdikcə, zaman Ulu Öndəri bioloji olaraq bizdən uzaqlaşdırdıqca, Onun böyüklüyünü, dahiliyini, əbədiliyini daha dəqiqliklə anlayırıq. Əgər bu gün xalqımızın Ümummilli Lideri, dahi şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyev barədə fikirlərimizi bölüşürüksə, ilk növbədə Onun böyük Azərbaycanlı olduğunu vurğulamalıyıq.***



**Bəhruz QULİYEV,
"SƏS" qəzetinin
baş redaktoru,
fəlsəfə üzrə fəlsəfə doktoru**

Belə ki, Ulu Öndərimizin bizlərə miras qoyduğu Azərbaycançılıq, milli-mənəviyyatın qorunub-saxlanılması ideologiyası xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsində öz tarixi və əhəmiyyətli rolunu oynayıb. Məhz Ulu Öndərin uzaqgörənliyi, xalqına və dövlətinə verdiyi sonsuz dəyəri nəticəsində Azərbaycanda xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və qüdrətli, güclü dövlətin təməli qoyuldu ki, bu reallıq özünü ən yüksək səviyyədə tərənnüm etdirməkdədir. Əlbəttə ki, bu danılmaz reallıq eyni zamanda ölkəmizin çoxşaxəli inkişafında, sabitliyə doğru irəliləməsində, dünya birliyində layiqli yer tutmasında və bu birlikdə yer almasında öz əvəzsiz, müsbət təsirlərini göstərdi. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində - ağır dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı əminliklə öz Liderinə etimad etdi və bu etimad təbii ki, hər bir azərbaycanlının gələcəyə inamlı baxışında öz təşəkkülünü tapmış oldu.

Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi ideyasındakı təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası olub ki, bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məfkurənin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı qərarlı addımlar atır, bunu millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu bütün çıxışlarında vurğulayır.

Biz bilirik ki, hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı bilavasitə dövlətçilik, Azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. Artıq bu təməl dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına dayanır. Tarix də bu gerçəkliyi sübut etməkdədir. Əbəs deyil ki, müxtəlif siyasi-ictimai hadisələr baş verərkən, Heydər Əliyevin bir çağırışı ilə onminlərlə insan Onun səsinə-səs verir, Liderinin ətrafında birləşirdi. Bax, bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, Azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü olaraq şanlı tariximizə fəxarət hissi ilə yazılıb.

### Heydər Əliyev fundamental inkişaf strategiyasını təmin etdi

Bəllidir ki, 1969-cu ildək Azərbaycan SSRİ-nin tərkibində yalnız xammal mənbəyi kimi çıxış edir, bütün sahə və istiqamətlər üzrə ən geridə qalmış ölkələrin başında gəlirdi. Respublikamızın inkişafı üçün əhəmiyyətli resurs və potensial mövcud olsa da, onlardan səmərəli surətdə istifadə edilməməsi tənəzzül meyllərinin əsasında dayanan başlıca faktor idi. Amma Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması ölkəmizin Sovet dövrü tarixində dönüş nöqtəsi oldu.

Ulu Öndər Heydər Əliyev fundamental strateji tədbirlər görməklə, davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Sürətli sənayeləşmə kursu seçildi və qısa zaman kəsiyində sənaye sahəsinin inkişafında mühüm irəliləyişlər qeydə alındı. Ardıcıl surətdə sənaye müəssisələri tikilib istifadəyə verildi, kənd təsərrüfatı və s. sahələrdə yüksəlişlər meydana gəldi ki, bu da davamlı inkişaf konsepsiyasının həyata keçirilməsini təmin edən əsaslardan biri oldu. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində də tənəzzül meyilləri aradan qaldırıldı və bəhs edilən sahədə ehtiyatlardan səmərəli istifadə etməklə davamlı inkişafın əsası qoyuldu. Nəticə etibarilə, neft hasilatı xeyli artırıldı.

Qeyd olunanlarla yanaşı, təhsil sahəsində də ardıcıl və davamlı islahatlar həyata keçirildi ki, bu da kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi işinə təməlli töhfələr bəxş etmiş oldu. Məhz Heydər Əliyevin xüsusi diqqət və qayğısının fonunda kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində azərbaycanlı gənclər SSRİ miqyasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə göndərildilər. Habelə, azərbaycanlı gənclərin SSRİ miqyasında fəaliyyət göstərən nüfuzlu ali təhsil məktəblərinə göndərilməsi milli mədəniyyətimizin təbliği və möhkəmləndirilməsi, milli diaspor quruculuğunun formalaşdırılması işinə mühüm strateji töhfələr bəxş etdi.

### Bax bu reallıq Azərbaycançılıq məfkurəsinin təməlinin qoyulması və möhkəmləndirilməsi idi!

Azərbaycan SSRİ miqyasında xüsusi çəkiyə malik olan və liderə çevrilən respublika adını qazandı Lakin bu da son olmadı. Heydər Əliyevin qətiyyəti sayəsində milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Mədəniyyətimiz, incəsənətimiz inkişaf etdi, dünya Azərbaycanı daha yaxından tanımağa başladı. 1978-ci ildə isə, Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi hadisə idi. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Nəticədə Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəyə rəhbərlik etdiyi dövrdə görülən strateji tədbirləri fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan və liderə çevrilən respublika adını qazandı.

### Naxçıvandan davam edən qətiyyət yolu

Tarix sübut edir ki, 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya mövcud idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə İttifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmiş və idarəetmə potensialı və qabiliyyəti aşağı olan ölkələrdə çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyan etməkdə idi. Eyni zamanda, Muxtar Respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini maksimum dərəcədə mürəkkəbləşdirmişdi. Olaylar isə, 1991-ci ilin sentyabr ayında Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin sədri seçilməsinədək olan tarixi mərhələdə daha da kəskinləşdi. Belə bir çətin zamanda Ali Məclisin sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu. Faktlar da bu reallığı kifayət qədər əks etdirməkdədir.

17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu nümayiş etdirdi. Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı. Həmin vaxtlar Azərbaycanda hakimiyyətdə olan səriştəsiz qüvvələr korporativ maraqlar əsasında çıxış edərək sabitliyə və inkişafa mane olmaq yönündə xüsusi fəallıq göstərirdilər ki, bu da Naxçıvanın durumuna mənfi təsir edən destruktiv faktor qismində çıxış edirdi. Hətta iş o həddə çatmışdı ki, xarici güc mərkəzlərinin "marionetka"ları qismində çıxış edən hakimiyyətdəki "piyada"lar Naxçıvanda bir neçə dəfə dövlət çevrilişinə cəhd etdilər. Bunlardan ilki Xalq Cəbhəsinin Naxçıvandakı 24 oktyabr 1992-ci ildə silahlı dəstələrinin Muxtar Respublikada etdiyi çevriliş cəhdi oldu. Lakin Ulu Öndər Heydər Əliyevin siyasi məharəti və xalqın Onun ətrafında sıx birləşməsi sayəsində mənfur çevriliş cəhdlərinin qarşısı alındı.

Bunun ardınca, Ulu Öndər Heydər Əliyev milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Eyni zamanda, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü elan edilməsi barədə də tarixi qərar qəbul edildi.

### Tarixi xilaskarlıq missiyası: Heydər Əliyev siyasi iradəsi!

Azərbaycanın o dövrkü iqtidarının müstəqillik ideyalarına etinasız olmasının nəticəsi idi ki, şəraitdən istifadə edən təcavüzkar Ermənistan strateji baxımdan ən əlverişli ərazilərimizi işğal etdi. Hələ bu, son deyildi. Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını, yenicə əldə etdiyi müstəqilliyini böyük sual altında qoymuşdu. Həmin ərəfələrdə ağır vəziyyətdən çıxışı təmin edə bilməyəcəyini anlayan Ayaz Mütəllibov iqtidarı çıxış yolunu istefa verməkdə gördü.

Bunun ardınca isə, hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü Azərbaycanı sözün əsl mənasında xarici xüsusi xidmət orqanlarının mübarizə meydanına çevirmişdi. Ölkədə tam bir anarxiya yaşanır, daxili çəkişmələrin ardı-arası kəsilmirdi. Hətta əlinə silah alan hər kəs dərhal hakimiyyəti ələ keçirməyə çalışırdı və eyni zamanda, separatçılıq amilləri meydana çıxmışdı. Belə vəziyyət 1993-cü ilə, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi. Ölkəmizdə hökm sürən xaotik və anarxist meyllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. O, qısa müddətdə ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, müstəqilliyin əsaslarını möhkəmləndirmək istiqamətində addımlar atdı. Xalq öz xilaskarının ətrafında cəmləşdi və ölənin inkişaf tarixinin yeni dövrünə qədəm qoyuldu.

### Yeni Azərbaycan Partiyası - tarixi zərurətin təntənəsi!

Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Belə ki, hakim dairələrin törətdikləri süni maneələrə baxmayaraq, ölkə ziyalılarının təkidli çağırışları və xalqın etimadı sayəsində 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Heydər Əliyevin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad partiyanın qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Fakt budur ki, YAP siyasi təşkilat olaraq, yarandığı müddətdən cəmi 6 ay sonra siyasi hakimiyyətə gəldi və bu, bilavasitə xalqın dəstəyinin, Ulu Öndər Heydər Əliyevə olan məhəbbətinin, inam və etibarının bariz göstəricisi idi.

Partiyanın uğurlarının davamlılığını şərtləndirən daha bir mühüm amil partiyada Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan gəncləşdirmə siyasəti oldu. Partiyanın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq İlham Əliyevin təmsilçiliyi bu mənada xüsusilə qeyd olunmalıdır. Məhz 1999-cu ildə keçirilən YAP-ın I Qurultayında o zaman ARDNŞ-in birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Əgər nəzərə alsaq ki, cənab İlham Əliyev həmin dövrdə həm də Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri idi, onda qeyd edə bilərik ki, bu, partiyanın yeni mərhələdə qazanacağı uğurların başlanğıc nöqtəsi də sayıla bilərdi. Ulu Öndər Heydər Əliyevin siyasi varisi olaraq İlham Əliyev Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətinin daha geniş beynəlxalq müstəvilərə daşımaq məqsədini uğurla həyata keçirdi. Artıq bu gün bu gün həm ölkə daxilində, həm də beynəlxalq siyasi arenada böyük nüfuza, əlaqələrə malik olan YAP ən güclü təşkilatı qismində öz sözünü deməkdədir.

### İlham Əliyev - Heydər Əliyevin layiqli siyasi varisi və xalqının Prezidenti!

Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilir. Məhz bunun qanunauyğun nəticəsidir ki, bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması və səmərəli xarici siyasət kursunun həyata keçirilməsi müasir Azərbaycan dövlətinin gücünü artıran fundamental faktor kimi çıxış edir.

Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir. Vətəndaşların maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin gücləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi kimi konkret faktlar ümummilli inkişafın təcrübi gerçəkliklərini təşkil edir. Qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi kimi zəruri və təxirəsalınmaz tədbirlər də milli inkişafa təkan verməkdədir.

Beləliklə, Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən müstəqil xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsini təmin etməklə yanaşı, ölkəmizi dünya siyasətinin əsas konturlarını müəyyənləşdirən güc mərkəzlərinin başlıca strateji tərəfdaşlarından birinə çevirib. Bu, Ulu Öndər Heydər Əliyev yolunun məntiqi və bariz davamı, xalqın birmənalı dəstək verdiyi siyasətin bariz nəticəsidir!

# Ulu Öndər Heydər Əliyev - ƏN BÖYÜK AZƏRBAYCANLI

Əvvəli-Səh-14

## Tarixi xilaskarlıq missiyası: Heydər Əliyev siyasi iradəsi!

Azərbaycanın o dövrkü iqtidarının müstəqillik ideyalarına etinasız olmasının nəticəsi idi ki, şəraitdən istifadə edən təcavüzkar Ermənistan strateji baxımdan ən əlverişli ərazilərimizi işğal etdi. Hələ bu, son deyildi. Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını, yenicə əldə etdiyi müstəqilliyini böyük sual altında qoymuşdu. Həmin ərəfələrdə ağır vəziyyətdən çıxışı təmin edə bilməyəcəyini anlayan Ayaz Mütəllibov iqtidarı çıxış yolunu istefa verməkdə gördü.

Bunun ardınca isə, hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü Azərbaycanı sözün əsl mənasında xarici xüsusi xidmət orqanlarının mübarizə meydanına çevirmişdi. Ölkədə tam bir anarxiya yaşanır, daxili çəkişmələrin ardı-arası kəsilmirdi. Hətta əlinə silah alan hər kəs dərhal hakimiyyəti ələ keçirməyə çalışırdı və eyni zamanda, separatçılıq amilləri meydana çıxmışdı. Belə vəziyyət 1993-cü ilə, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi.

Ölkəmizdə hökm sürən xaotik və anarxist meyllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. O, qısa müddətdə ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, müstəqilliyin əsaslarını möhkəmləndirmək istiqamətində addımlar atdı. Xalq öz xilaskarının ətrafında cəmləşdi və ölənin inkişaf tarixinin yeni dövrünə qədəm qoyuldu.

## Yeni Azərbaycan Partiyası - tarixi zərurətin təntənəsi!

Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Belə ki, hakim dairələrin törətdikləri süni maneələrə baxmayaraq, ölkə ziyalılarının təkidli çağırışları və xalqın etimadı sayəsində 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Heydər Əliyevin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad partiyanın qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Fakt budur ki, YAP siyasi təşkilat olaraq, yarandığı müddətdən cəmi 6 ay sonra siyasi hakimiyyətə gəldi və bu, bilavasitə xalqın dəstəyinin, Ulu Öndər Heydər Əliyevə olan məhəbbətinin, inam və etibarının bariz göstəricisi idi.

Partiyanın uğurlarının davamlılığını şərtləndirən daha bir mühüm amil partiyada Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan gəncləşdirmə siyasəti oldu. Partiyanın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq İlham Əliyevin təmsilçiliyi bu mənada xüsusilə qeyd olunmalıdır. Məhz 1999-cu ildə keçirilən YAP-ın I Qurultayında o zaman ARDNŞ-in birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Əgər nəzərə alsaq ki, cənab İlham Əliyev həmin dövrdə həm də Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri idi, onda qeyd edə bilərik ki, bu, partiyanın yeni mərhələdə qazanacağı uğurların başlanğıc nöqtəsi də sayıla bilərdi. Ulu Öndər Heydər Əliyev siyasi varisi olaraq İlham Əliyev Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətinin daha geniş beynəlxalq müstəvilərə daşımaq məqsədini uğurla həyata keçirdi. Artıq bu gün bu gün həm ölkə daxilində, həm də beynəlxalq siyasi arenada böyük nüfuza, ələqələrə malik olan YAP ən güclü təşkilatı qismində öz sözünü deməkdədir.

## Neft strategiyası - bugünkü iqtisadi uğurlarımızın təməli

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf və tərəqqi strategiyasının mühüm istiqamətlərindən birini də müstəqil enerji siyasəti təşkil edir. Ümummilli liderin gərgin əməyi və qətiyyəti sayəsində neft müqavilələsi üzrə müzakirələrə, danışıqlara yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri hazırlandı. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi, Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu məqsədlə müəyyənləşdirilən ən uğurlu marşrut Bakı, Tbilisi və Ceyhanı birləşdirən boru kəmərinin çəkilməsi idi. Həmin dövrdə müxtəlif xarici qüvvələrin təxribatlarına və təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə-Gürcüstan-Azərbaycan dövlətlərinin birliyi, Amerika Birləşmiş Ştatlarının dəstəyi nəticəsində, ən əsası isə, Ulu Öndərin qəti əzmkarlığı sayəsində bəzilərinin əfsanə hesab etdiyi layihə reallığa çevrildi.

O da sirr deyil ki, bu gün Azərbaycanın bənzəri görülməyən sürətlə inkişafı, dünyada nüfuz sahibi olması, müxtəlif məsələlərə münasibətdə öz mövqeyini ortaya qoyması, heç bir dövlətdən və qurumdan asılı olmayan həqiqi müstəqilliyə malik olması məhz Ulu Öndər Heydər Əliyevin düşünülmüş enerji siyasətinin uğurla davam etdirilməsi sayəsində mümkün olmuşdur.

## Mətbuatımızın hamisi

Mətbuatımızın inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi tarixi töhfələri var. Bu baxımdan, əbəs yerə deyil ki, sözügedən amil Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirib. Ümummilli Liderimiz milli mətbuatımızın iş prinsipini və tarixini şərh edərkən bu tarixi kəlamlarını vurğulayıb: "Şərəfli tarixə və zəngin ənənələrə malik milli mətbuatımız Azərbaycan ictimai fikrinin inkişafında, xalqımızın milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Milli azadlıq hərəkatının daim ön sıralarında getmiş Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir".

Onu da qeyd etmək yerinə düşərdi ki, sovet hakimiyyəti illərində dövlətin ideoloji tələbləri söz azadlığına, mətbuatın demokratik prinsiplərlə inkişafına imkan vermirdi. Hələ o zamanlar bu maneələri aşa bilən yeganə güc Heydər Əliyev idi. Dahi rəhbər mətbuatımızın inkişafına səbəb ola bilən və biləcək bütün baryerləri aradan qaldırdı, həyatımızın digər sahələri ilə yanaşı, mətbuatımız da hərtərəfli inkişaf yoluna qədəm qoydu, vətəndaşların maarifləndirilməsində ideoloji vasitəyə çevrildi. Məsələn, hələ sovet hakimiyyəti vaxtlarında rüşvətxorluq və korrupsiya ilə mübarizədə, vəzifəli şəxslərin ifşa edilməsində Heydər Əliyev mətbuatın üzərinə müəyyən tapşırıqlar qoyaraq, bununla ictimai nəzarəti gücləndirməyə müvəffəq olmuşdu. Təsəvvürünüzə gətirin, SSRİ-nin ən həssas vaxtlarında, Azərbaycanda fəaliyyət göstərən dövlət mətbuatlarında senzuraların tətbiq edildiyi zamanda belə, demokratik işartılar görünməyə başlamışdı. Bu fakt heç bir başqa ittifaq respublikalarında yox idi.

Ulu Öndərimizin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən zəngin qanunvericilik bazası yaradıldı, mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirildi, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyuldu, 1998-ci ildə Azərbaycanda ilk dəfə olaraq senzura ləğv edildi. O da əbəs yerə deyil ki, Ulu Öndər Heydər Əliyev bir neçə dəfə Azərbaycan mətbuatının dostu olaraq seçilmişdi. Bu, Onun mediaya, jurnalistlərə verdiyi qiymətinin nəticəsi idi.

1993-cü ildən ötən dövr ərzində ölkəmizdə kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı 50-yə yaxın qanun, fərman və sərəncamın qəbul olunması milli mətbuatın inkişafına göstərilən diqqətin nəticəsidir. 1999-cu il dekabrın 7-də "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu mətbuatın hüquqi bazasının zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sonrakı dövrdə də davam etdirildi, "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olundu. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkəti, sürətlə inkişaf edən internet resursları cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar. Ulu Öndərimiz bununla bağlı növbəti tarixi fikirlərini irəli sürmüşdü: "Hər bir kütləvi informasiya vasitəsi milli dövlət quruculuğu prosesində, vətəndaş cəmiyyətinin qurulmasında, milli və bəşəri dəyərlərin bərqərar edilməsində, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsində səmərəli surətdə iştirak etməli, həyatın güzgüsü kimi həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir". Bütün bunlar dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi idi ki, bu olmasaydı, milli mətbuatımız hazırkı tərəqqisinə nail ola bilməzdi. Təbii ki, Ümummilli Liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişafına ciddi diqqət yetirir. Ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin olunması, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri mətbu fəaliyyətin maneəsiz həyata keçirilməsinə yaradılmış şəraitin, mətbuata dövlət qayğısının bariz nümunəsidir.

Bir xüsusi haşiyə olaraq onu da vurğulamaq yerinə düşərdi ki, "SƏS" qəzeti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlməsi tələblərini ictimailəşdirilməsi, dünyaya çatdırılması, Onun ideyalarının cəmiyyətə təqdim etməsi istiqamətində böyük, hətta deyərdim ki, əvəzolunmaz işlər görüb. Həmin dövrlərdə ziyalıların Ümummilli Liderə müraciəti, Ulu Öndərin isə ziyalılara cavabı məhz "SƏS" qəzetində dərc olunurdu. Bu xidmətin nəticəsidir ki, Heydər Əliyev Öz çıxışlarında hər zaman vurğulayardı ki, "SƏS" qəzeti Onun üçün çox əziz qəzetdir. O, qəzetin xidmətlərini xüsusi qiymətləndirir, əmin olduğunu bildirirdi ki, qəzet daim inkişaf edəcək, modernləşəcək. O cümlədən, "SƏS" qəzeti həm də o qəzetlərdəndir ki, müxalif qəzet kimi fəaliyyətə başlayıb. O dövrlərdə dəfələrlə hücumlara, təzyiqlərə məruz qalıb. Amma qəzet öz yolundan, öz mövqeyindən dönməyib. "Səs" qəzeti iqtidara müxalif olub. İndiki müxalifət qəzetlərindən fərqli olaraq, dövlətə və xalqa müxalif mövqedə dayanmayıb. Bir növ qəzet o dövrdə müxalif mətbuatın ənənəsini yaradıb. Sonradan "SƏS" qəzeti iqtidar yönümlü qəzetlərə bir mayak, məktəb rolunu oynadı.

O cümlədən, Prezident İlham Əliyev cənabları "SƏS" qəzetinə yüksək qiymət verərək, bu mətbu orqanının yubileyi ilində təbrik ünvanı ünvanlayıb, fəaliyyətini yüksək dəyərləndirib. Bu amil bizlər üçün tarixi və unudulmaz şərəf, qürur hissidir.

## İlham Əliyev - Heydər Əliyevin layiqli siyasi varisi və xalqının Prezidenti!

Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilir. Məhz bunun qanunauyğun nəticəsidir ki, bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması və səmərəli xarici siyasət kursunun həyata keçirilməsi müasir Azərbaycan dövlətinin gücünü artıran fundamental faktor kimi çıxış edir.

Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir. Vətəndaşların maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin gücləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi kimi konkret faktlar ümummilli inkişafın təcrübi gerçəkliklərini təşkil edir. Qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi kimi zəruri və təxirəsalınmaz tədbirlər də milli inkişafa təkan verməkdədir.

Beləliklə, Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən müstəqil xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsini təmin etməklə yanaşı, ölkəmizi dünya siyasətinin əsas konturlarını müəyyənləşdirən güc mərkəzlərinin başlıca strateji tərəfdaşlarından birinə çevirib. Bu, Ulu Öndər Heydər Əliyev yolunun məntiqi və bariz davamı, xalqın birmənalı dəstək verdiyi siyasətin bariz nəticəsidir!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

9 may

Son səhifə

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# İnsanın təhsil haqqı

***Təhsil dedikdə əslində iki şəxs -öyrədən və öyrənən arasındakı fərdi təlim-tərbiyə prosesindən başlayaraq, beynəlxalq təhsil şəbəkəsinədək genişlənən çoxşaxəli və mürəkkəb bir sistemdən söhbət gedir. Valideyn-övlad, usta-şagird, müəllim-tələbə münasibətləri əsasən fərdi miqyaslı proseslərdir. Bu proseslər cəmiyyət miqyasında təşkilatlandıqda, müvafiq sosial struktur, infrastruktur və mühitlə tamamlandıqda fərqli bir mahiyyət kəsb edir. Amma miqyasından asılı olmayaraq, təhsil prosesinin mərkəzində həmişə konkret ləlim və tərbiyə prosedurları dayanır.***

Təlim prosesi məqsədyönlü və qeyri-aşkar ola bilər Belə ki, uşaq ailədə məhz onun üçün nəzərdə tutulmayan söhbətləri dinləyir, hadisələrin şahidi olur. Bu zaman öyrənmə prosesinin subyekti uşaq özüdür. O, özü ətraf mühitdə nə görürsə, onu da götürür; həm də çox vaxt özü də bilmədən, qeyri-aşkar şəkildə. Əslində bu proses öyrətmə yox, öyrənmə prosesidir və təkcə uşaqlıq dövrünü deyil, insanın bütün həyatını əhatə edir. Bu proses ləlim və tərbiyəyə aid olmadığı kimi, özünütəlim və özünütərbiyəyə də aid deyil. Belə ki, sonuncuda subyekt insan özü olsa da bu, - məqsədyönlü, istiqamətli bir prosesdir. Onun öz metodikası, üsulları ola bilər və insan bu metodlardan şüurlu surətdə istifadə edə bilər. Bu mənada özünütəlim və özünütərbiyə də əslində təlim-tərbiyə prosesinin tərkib hissəsidir. Sadəcə olaraq, burada həm subyekt, həm də obyekt rolunu bir şəxs oynayır.



Qcyri-şüuri, kortəbii mənimsəmə prosesi isə əslində təbii inkişafın tərkib hissələrindən biridir. Söhbət hələ rüşeym halında ikən hər uşağa xas olan təbii inkişaf potenısialnın rcalizasiyasından gedir. Bu proses təkcə insana yox, bütün canlılara aiddir. Bitki də müvafiq enerji dəstəyi aldığı zaman toxumda olan potensialı reallaşdırır ki, bu da əslində onun təbii inkişafıdır. Heyvanlar da həmçinin; mstmktlə yanaşı duyğu üzvləri vasitəsi ilə əldə olunan informasiya heyvanı daha "təcrübəli" edir və o öz mühiti daxilində hansı şəraitdə necə rəftar etməli olduğunu öyrənmiş olur. Lakin bu öyrənmə bitkilərdən fərqli olaraq iki komponentə ayrılır. Kortəbii mənimsəmə ilə yanaşı, bura valideynlərin öyrətməsi də daxildir.

Hər bir heyvan öz balası ilə məşq edir və ona müəyyən vərdişlər aşılayır. Yeri gəlmişkən. bu funksiyam insanlar - sirk ləlimçiləri yerinə yetirdikdə heyvan təbii şəraitdə ona lazım olduğundan daha çox hərəkət vərdişləri qazana bilir. Deməli, təlim-məşq anlayışı heyvanlara da tətbiq oluna bilər. Sadəcə olaraq bu proses biliklə vasiıələımir və ancaq vərdişlə məhdudlaşır. İnsanlarda isə təbii potensialın realiza- siyası kortəbii öyrənmə və hərəkət vərdişlərinin mənimsənilməsi ilə yanaşı, həm də biliklərlə vasiıələnən məqsədyönlü öyrənmə və öyrətmə sayəsində həyata keçir.

Canlıların daha yüksək inkişaf pillesi aşağı inkişaf təlimi təkcə öyrənmə ilə yox, həm də məşq vasitəsilə habelə, kortəbii mənimsəmə vasitəsilə həyata keçir. Daha yüksək struktur pillesi olan cəmiyyət səviyyəsində təlim və tərbiyənin yeni imkanları ortaya çıxır. Təhsil müəssisələri, məktəblər getdikcə daha geniş miqyasda yayılaraq əhalinin böyük əksəriyyətinin təlim-tərbiyəsini öz öhdəsinə götürür. Fərdi miqyasda müəllim-şagird münasibətlərindən fərqli olaraq məktəblərdə bu proses daha mütəşəkkil surətdə həyata keçirilir.

Məktəblər ləlimin əyaniliyini təmin etmək və səmərəliyini artırmaq üçün müvafiq maddi-texniki baza ilə təmin edilir və s.

Tədris planlarının, proqramların və dərsliklərin hazırlanması isə elə böyük miqyaslı elmi tədqiqat işləri və araşdırmalar tələb edir ki, onu nəinki fərdi miqyasda, heç məktəb miqyasında da həyata keçirmək mümkün deyil. Bütövlükdə ölkənin təhsil siyasətini müəyyən elmək, təlim və tərbiyə sahəsində strateji proqramlar hazırlamaq üçün pedaqoji elmlərin inkişafına və alman nəticələrin, habelə qabaqcıl təcrübələrin bütün ölkə miqyasında yayılmasına ehtiyac yaranır.

Bu, olduqca böyük bir məsuliyyətdir. Ölkə miqyasında bu proseslər hər hansı bir təhsil müəssisəsi miqyasında həyata keçirilə bilməz. Vahid təhsil siyasətinə əsaslanan təhsil sistemi bütöv orqanizm kimidir. Bu orqanizmin səmərəli surətdə idarə olunması üçün bütün struktur səviyyələrində idarəetmənin təkmilləşdirilməsi ilə yanaşı, təlim-tərbiyə prosesinin də modemləşdirilməsinə böyük ehtiyac vardır.

Lakin bu sahədə aparılan nəzəri tədqiqatlar bir şeydir, pedaqoji praktikanın mənimsədilməsi isə başqa bir şey. Müəllimlər pedaqogika nəzəriyyəçiləri deyil; onlar pedaqoji praktikanı təmsil edirlər. Ona görə də, bizcə, pedaqogika üzrə dərsliklər daha çox dərəcədə müəllimin əməli fəaliyyətinə xidmət etməlidir.

Milli təhsil sistemi hər bir ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişaf səviyyəsinə uyğundur. Nazirlər Kabineti sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə qərar verib

Qərarda qeyd olunub ki, Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan aşağıdakı həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri) üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin:

- ünvanlı dövlət sosial yardımı alanlar;
- hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:
- I və II dərəcə əlilliyi olan şəxslər;
- işsiz kimi qeydiyyatda olanlar;
- yaşa görə əmək pensiyaçıları; 1.2.4. yaşa görə sosial müavinət alanlar.

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

- Bu Qərarın 1-ci hissəsində qeyd olunan tədris semestrləri (yarımillikləri) üçün dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulan təhsil haqqı xərci ali təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş ayrı-ayrı ixtisaslar üzrə hər bir təhsilalana düşən təhsil xərclərinin, orta ixtisas və peşə təhsili müəssisələrində isə illik təhsil haqqının 50 faizi miqdarında müəyyən edilsin.

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil müəssisələri (tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq) tərəfindən təqdim edilən məlumatlar əsasında normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" vasitəsilə müəyyən edərək, bu Qərarın icrasını təmin etsin.

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi və ali, orta ixtisas və peşə təhsili müəssisələri 20 gün müddətində bu Qərarın icrası üçün zəruri informasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalı üzərindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin sorğularının cavablandırılması qaydasında inteqrasiyası üçün müvafiq tədbirləri həyata keçirsinlər.

- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bir ay müddətində "Elektron hökumət" portalı vasitəsilə bu Qərarın 4-cü hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının və qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını təmin etsin.

- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi sifarişlərə uyğun olaraq maliyyələşməni təmin etsin.

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent**

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**